# QURANDA SƏBRİN ƏHƏMİYYƏTİ

**Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbirli olmağı məsləhət edənlərdən başqa. (Əsr surəsi, 2-3)**

**HARUN YƏHYA (ADNAN OKTAR)**

## OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır. Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razısalıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri var. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

## MÜƏLLİF VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30 000 şəklin olduğu cəmi 45 000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir. Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Belə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya və Herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın bir çox başqa ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, su sahili (Tanzaniyada işlədilir), hausa (Afrikada geniş işlədilir), divehi (Maldiv adalarında işlədilir), danimarka və isveç kimi bir çox dillərə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir. Dünyanın dörd bir tərəfində böyük rəğbətlə qarşılanan bu əsərlər bir çox insanın iman gətirməsinə, bir çoxunun da imanının dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikrən məğlub olmuşlar. Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür. Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır. Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və əhəmiyyətli bir təsiri olmayan ümumi təcrübə ilə kifayətlənən kitabları yaymaq isə zəhmət və zaman itkisinə səbəb olur. İmanı

qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, dürüstlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

Bu kitabda istifadə edilən ayələr Ə.Musayevin, həmçinin Z.Bünyadov və V.Məmmədəliyevin birgə hazırladığı Qurani-kərim məalından götürülmüşdür.

## YARADILIŞ HƏQİQƏTİ

**Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. (Bunların) hamısı açıq-aydın yazılıdır. (Hud surəsi, 6)**

Gözlər baş nahiyəsində yerləşdiyi üçün görmə funksiyası ən rahat və ən ideal formada baş verir. Məsələn, gözlərimiz ayaqlarımızda olsa idi, yalnız getdiyimiz yolu görəcəkdik və bədənimizin yuxarı hissəsi, xüsusilə başımız müntəzəm olaraq bir yerə toxunardı. Bundan başqa, baş nahiyəsində yerləşməsi gözlərin sağlamlığını və təhlükəsizliyini təmin edir. Çünki boyun ani reflekslə gözü zərər verəcək şeylərdən qoruyur.

Balıqların bir çoxunun vücudu olduqca möhkəm dəri ilə örtünmüşdür. Bu dəri alt və üst qisim olmaqla iki təbəqədən ibarətdir. Üst dəridə selik ifraz edən vəzlər var. Selik sürüşkən və yapışqan olmaqla balığın suda hərəkəti zamanı sürtünməni çoxaldır, beləliklə, balıq sürətli hərəkət edə bilir. Bundan başqa, sürüşkənlik həm də düşmənin balığı ovlamağını çətinləşdirir. Selik həmçinin balığı xəstəlik yayan orqanizmlərdən qoruyur.

Balasını qorumaq istəyən ana zebr bəzən özünü təhlükəyə atır. Onlara hücum edildikdə balası ilə hücum edənlərin arasına girib özünü sipər edir. Baladan daha sürətli qaça bildiyi halda, balasından yavaş qaçır. Beləcə yırtıcı heyvanların balaya zərər verməsinə mane olur. Zebrlərin bu fədakar davranışlarını təkamül nəzəriyyəsinin xəyali iddiaları ilə açıqlamaq mümkün deyil.

Gilas bədəni zəhərli maddələrdən təmizləyir. Böyrəklərin fəaliyyətini yaxşılaşdırır, eləcə də bədəndə yığılan sidik turşusu və urat duzlarınının bədəndən xaric edilməsini təmin edir. Bunun sayəsində revmatizm, damar sərtliyi kimi xəstəliklərin qarşısını alır. Meyvə və tərəvəzlərdə yaradılmış bu xüsusiyyətlər Allahın sonsuz şəfqət və mərhəmətinin dəlillərindəndir.

*http://www.sosialdarvinizm.com/*

Kompüterlər texnologiyanın ən üstün məhsullarıdır. Bədənimizdəki bütün işləri idarə edən beynimiz və bilgiləri toplayan yaddaşımız heç bir kompüterlə müqayisə edilməyəcək qədər üstün sistemə sahibdir. Kompüter yaddaşına yazdığı məlumatı diskdə saxlayır ki, bu diskin tutumu məhduddur. Halbuki beyin belə bir diskə sahib olmadan bir ət parçasının içində milyonlarla görüntünü və bilgini saxlayır. Maraqlı cəhəti isə odur ki, indiyə qədər beyində yaddaş mərkəzi tapılmayıb. Beyni yaradan Allahdır.

*http://www.fosilmuzeyi.com/*

Foklar sürü halında yaşayır. Necə olur ki sürünün içində ana fok balasını tanıyır? Digər bir çox canlı kimi ana fok da doğuşdan sonra balasını qoxulayıb ona toxunur. Bu sayədə balasının qoxusunu tanıyır və onu başqa balalarla heç vaxt qarışdırmır. Allah hər canlını ehtiyacı olan xüsusiyyətləri ilə yaradandır.

*www.unludarwinistyalanlar.com*

Hüceyrənin nüvəsindəki DNT molekulu xromosom adlı xüsusi qılafda paketlənir. Bir hüceyrədəki xromosomlarda paketlənən DNT molekulunun uzunluğu 1 metrə çatır. Xromosomun qalınlığı isə 1 nanometr, yəni metrin milyardda biri qədərdir. Təxminən 1 metr uzunluğundakı DNT molekulu belə kiçik sahədə paketlənmiş formadadır.

**Gecəni rahatlanmanız üçün yaradan, gündüzü işıqlı edən Allahdır. Allah insanlara qarşı lütfkardır, lakin insanların çoxu şükür etmir. (Ğafir surəsi, 61)**

Kəpənəklərin qanadlarında mükəmməl dizayn mövcuddur. ABŞ-ın Tafsa Universitetində aparılan araşdırma nəticəsində kəpənəklərin qanadlarında xüsusi soyutma sistemi aşkar olundu. Kəpənəklər soyuqqanlı canlılar olduqları üçün bədən temperaturları çox yüksəlməməli və daim eyni nisbətdə qalmalıdır. Uçarkən qanadlarda yaranan yüksək

temperatur kəpənəklər üçün problem yarada bilər. Kəpənəyin bədənində uçuş zamanı yaranan artıq temperatur qanadlardakı kapillyarlarda qanın dolaşması ilə birlikdə xaric edilir. Bu, Allahın yaratmasıdır.

*http://birayebiraciqlama.imanisaytlar.com/*

Darvinistlərin 150 ildir ki, davam edən ara-keçid fosil axtarışı uğursuzluqla nəticələnmişdir. Dövrümüzdə təkamülçülərin dəlil kimi ortaya qoyacaqları heç bir tapıntı yoxdur. Antropoloq Cefri H. Şvartz (Jeffrey H. Schwartz) fosil qeydlərinin darvinizmin əleyhinə olduğunu belə ifadə edir:

Bir çox paleontoloq fosil qeydlərində itmiş halqaları tapmaq əvəzinə, sadəcə böyük boşluqlarla və bu günə qədər qeyd edilmiş fosil növləri arasında hər hansı ara-keçid forma olmaması faktı ilə üzləşib.

(Schwartz, Jeffrey H., Sudden Origins, 1999, s. 89)

Era: Kaynozoy erası, Oliqosen dövrü

Yaş: 37 - 23 milyon il

Bölgə: Danimarka

Qara milçəklər *simuliidae* fəsiləsinə aid canlılardır. Bu günə qədər təsbit edilmiş haradasa 1800 növü var. Erkək qara milçəklər, ümumiyyətlə, nektarla bəsləndiyi halda, dişilər ağcaqanad kimi başqa heyvanların qanı ilə bəslənir. Əsasən, boz və qara rəngdə olan bu milçəklər qısa ayaqlara və antenalara malikdir. Əldə edilən bütün qara milçək fosilləri bu canlıların var olduqları gündən bəri eyni olduğunu, təkamül keçirmədiyini göstərir.

*http://www.allahvar.org/*

Yan tərəfdə görünən dövrümüzdə yaşayan milçəklərlə milyonlarla il əvvəl yaşamış milçəklər tamamilə eynidir.

Era: Kaynozoy erası, Eosen dövrü

Yaş: 45 milyon il

Bölgə: Litva

Ağcaqanad bir çox möcüzəvi xüsusiyyətə sahib olan canlıdır. Bu canlının istər sürfə və pup mərhələsində, istərsə də yetkin çağında sahib olduğu xüsusiyyətlər onların da uca Allahın əsəri olduğunu göstərir.

*http://www.usaqlarindunyasi.com/*

Altdakı şəkildə görünən ənbər içindəki ağcaqanad fosili 25 milyon yaşındadır və dövrümüzdəki ağcaqanadlarla eynidir. Bunun qarşısında darvinistlər heç bir söz deyə bilməz.

Era: Kaynozoy, Oliqosen dövrü

Yaş: 25 milyon il

Bölgə: Dominikan Respublikası

Rəsmdə ənbər içində fosilləşmiş arı fosili görürük. Bu canlıların günümüzdəki nümunələri milyonlarla il əvvəl yaşayan nümunələrindən fərqsizdir. İki rəsm müqayisə edildikdə aradakı mükəmməl bənzərlik dərhal aydın olur.

http://www.dasdovru.elmisaytlar.com/

Dövr: Kaynozoy erası, Miosen dövrü

Yaş: 25 milyon il

Bölgə: Dominikan Respublikası

Soldakı rəsmdə ənbər içində fosilləşmiş 25 milyon illik iynəsiz arı, aşağıda isə iynəsiz arının dövrümüzdəki nümunələrindən birini görürük.

Era: Kaynozoy, Eosen dövrü

Yaş: 45 milyon il

Bölgə: Rusiya

Bütün canlılar tarix boyu eyni mükəmməl xüsusiyyətləri göstərmişdir və Allahın izni ilə tək bir anda və mükəmməl şəkildə yaradıldıqlarını isbat etmişdir. Darvinistlər bu həqiqəti qəbul etməsələr də, bütün paleontoloji dəlillər onların nəzəriyyəsini alt-üst davam edəcək.

*http://www.derinelmleiman.com/*

Yan tərəfdə dövrümüzdəki tozağacının yarpaqları görünür.

Era: Kaynozoy, Eosen dövrü

Yaş: 50 milyon il

Bölgə: Kanada

Darvinistlər bütün canlıların təkamül keçirdiyini iddia edirlər. Milyonlarla il əvvələ aid fosil nümunələri buna görə də çox əhəmiyyətlidir. Canlılar dəyişməyib. Tək bircə fosil belə bu həqiqəti sübut edərir, həmçinin yer üzü saysız-hesabsız fosillərlə doludur.

*http://www.tekamulnezeriyyesi.elmisaytlar.com/*

Era: Mezozoy, Kretase dövrü

Yaş: 144-65 milyon il

Bölgə: Livan

Aşağıdakı kaman skatının dövrümüzdəki quruluşu və anatomik xüsusiyyətləri bundan 130 milyon il əvvəl də eyni formada olub.

50 milyon illik sekvoyya qozası fosili bu canlıların milyonlarla illik dövrdə eyni formada varlığını davam etdirdiklərini açıqca göstərir. Bu və digər fosil nümunələri həqiqəti bir daha elan edir: təkamül olmayıb. Darvinistlərin bu mövzudakı iddiaları əbəsdir. Təkamül böyük yalana əsaslanır və dəlili yoxdur.

Dövrümüzdəki sekvoyya qozası

Era: Kaynozoy, Eosen dövrü

Yaş: 50 milyon il

Bölgə: Kanada

Tüklü ağcaqanad on milyon illərdir ki, dəyişməyib və forması ilə təkamülçülərin iddialarına meydan oxuyan canlılardan biridir. Orta hesabla 3-12 mm ölçüsündə olan bu ağcaqanadlar yaz aylarında ortaya çıxır. Torpağa yaxın yerlərdə yaşayan növləri bitkilərə zərər verir. Bu fəsiləyə daxil olan canlılar məlum olan ən qədim ağcaqanad növlərindəndir.

Dövrümüzdəki tüklü ağcaqanad

Era: Kaynozoy, Eosen dövrü

Yaş: 50 milyon il

Bölgə: Britaniya Kolumbiyası, Kanada

Qütblərdən başqa dünyanın hər yerində yaşayan hamam böcəkləri fosil qeydlərində yüz milyonlarla il əvvəl qüsursuz və nöqsansız quruluşları ilə ortaya çıxır. 125 milyon il boyu formalarını qoruyan hamam böcəkləri təkamül keçirmədiklərini göstərir. Darvinistlər ideoloji qərəzli münasibətlərindən xilas olarlarsa, bu açıq həqiqətləri görə bilərlər.

Yan tərəfdə dövrümüzdə yaşayan hamam böcəyi görünür.

Era: Mezozoy, Kretase dövrü

Yaş: 125 milyon il

Bölgə: Liaoninq, Çin

*Mesoptara* dəstəsinə daxil olan əqrəb milçəklərinə əqrəblərin iynələrinə bənzər orqanı olduğuna görə belə ad verilmişdir. Şəkildə görünən 125 milyon illik əqrəb milçəyi fosili bu canlının aradan keçən milyonlarla ilə baxmayaraq, eyni qaldığını, yəni heç bir təkamül prosesindən keçmədiyini göstərir. Saysız-hesabsız dəlillər darvinizmi çökməyə məhkum etmişdir.

Altda fosilləşmiş 125 milyon il yaşındakı əqrəb milçəyi ilə yanda görünən dövrümüzdəki əqrəb milçəyi arasında heç bir fərq yoxdur.

Era: Mezozoy, Kretase dövrü

Yaş: 125 milyon il

Bölgə: Liaoninq, Çin

At nalı yengəcləri *chelicerata* cinsinə sinfinə daxildirlər, həmçinin hörümçəklər və əqrəb sinfinə də yaxındırlar. Şəkildə 150 milyon illik at nalı yengəci fosili göstərilmişdir. Bu fosil bir daha təkamülü təkzib edir və yaradılışın açıq-aşkar gerçək olduğunu təsdiq edir.

*www.yaratilisatlasi.com*

150 milyon il əvvəl də eyni xüsusiyyətlərə sahib olaraq yaşayan dövrümüzdəki at nalı yengəci

Era: Mezozoy, Yura dövrü

Yaş: 150 milyon il

Bölgə: Almaniya

Dövrümüzdə Şimali-Amerikada yaşayan göyrüş ağacı orta boyludur və böyük ağac kateqoriyasına aiddir. Özü kimi böyük ağac olan sekvoyya bitkisi ilə dövrümüzdən 50 milyon əvvəl də Şimali-Amerikada (Kanadada) varlığını davam etdirmiş və dövrümüzdəki şəkli ilə eyni özəlliklərlə yaşamışdır.

*http://immunsistemi.elmisaytlar.com/*

Aşağıda sekvoyya budağının 50 milyon illik fosili, yan tərəfdə isə dövrümüzdəki nümunəsi görünür.

Üstdə göyrüş yarpağının 50 milyon illik fosili, yan tərəfdə isə dövrümüzdəki nümunəsi görünür.

## GİRİŞ

*Ey iman gətirənlər! Səbir edin və səbirdə yarışın (Ali-İmran surəsi, 200)*

Allah bir ayədə **“(Bu) insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – qüdrətli, tərifəlayiq (Allahın) yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir kitabdır” (İbrahim surəsi, 1)** buyuraraq Quranın insanları qaranlıqdan aydınlığa çıxaran xüsusiyyətinin olduğunu bildirmişdir.

Quranda səbir etməyin insanları nura çıxaran yollardan biri olduğu buyurulur. Lakin Quranda bildirilən səbir gündəlik həyatda bir çoxlarının şahid olduğu hərəkətlərdən fərqli və üstün əxlaq xüsusiyyətidir. Quranda insanlara öyrədilən həqiqi səbir təkcə çətinliklər qarşısında deyil, əksinə, həyatın hər anında yaşanan əxlaq xüsusiyyətidir. Həqiqi səbir yalnız çətinliklərdə deyil, gözəl olan hər şeydə qərarlı olmaq və ömür boyunca gözəl əxlaq göstərmək deməkdir.

Allahın Quranda bildirdiyi səbrin ən əsas xüsusiyyətlərini peyğəmbərlərin həyatında görmək mümkündür. Çünki peyğəmbərlər Allahın dinini təbliğ edərkən səbirli olmuş, Allaha sədaqətdən əsla ayrılmamış və yalnız Allahın razılığını qazanmaq üçün səbir etmişlər. Səbir mövzusunda ən gözəl nümunə isə, şübhəsiz ki, mübarək peyğəmbərimiz hz.Muhəmməddir. Peyğəmbərimiz (səv) müsəlmanlara da hər zaman səbirli olmağı əmr etmişdir. Bir hədisdə Peyğəmbərimiz (səv) belə buyurur:

Möminin durumu necə də təəccüblüdür. Çünki hər işi onun üçün xeyirlidir. Bu, yalnız möminə xas özəllikdir, başqasına deyil. Ona razı qalacağı bir şey üz versə, şükür edər, bu, xeyirdir. Zərər gəldikdə də səbir edər, bu da xeyirdir. (Kutubi-sittə müxtəsəri, tərcümə və şərhi, prof. dr. İbrahim Canan, 2-ci cild, “Akçağ” Nəşriyyatı, Ankara, 1992, səh.208)

Odur ki, bu kitabın məqsədi də insanlara bu üstün əxlaq xüsusiyyətini Quranda bildirildiyi şəkildə təsvir etmək və onları həqiqi səbri yaşamağa dəvət etməkdir. Bu kitabda el arasında bilinən yanlış səbir anlayışından, Allahın insanlardan hansı səbri istədiyindən, bunun üçün onları hansı hadisələrlə imtahan edəcəyindən və Rəbbimiz üçün səbirli olanlara hansı mükafatın veriləcəyindən bəhs ediləcək. Bununla yanaşı, peyğəmbərlərin hər şeydə necə səbirli olduqlarına dair Qurandan nümunələr veriləcək və beləliklə, hər kəs həyatının sonuna qədər Rəbbimiz üçün səbirli olmağa dəvət ediləcək.

Kitabın başqa bir məqsədi isə Allahın bu dəvətini qəbul edənlərə “... səbir edənlərə müjdə ver” (Bəqərə surəsi, 155) ayəsində xəbər verilən böyük müjdəni verməkdir. Eyni zamanda, Allahın səbir edənlərlə bərabər olduğunu (Bəqərə surəsi, 153) bir daha xatırladıb səbrin möminlər üçün çoxlu gözəlliyin qapısını açan bənzərsiz açar olduğunu vurğulamaqdır.

## QURANDA SƏBİR NECƏ TƏSVİR OLUNUR?

***Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla  kömək diləyin.***

***Həqiqətən, Allah səbir edənlərlədir! (Bəqərə surəsi, 153)***

Allah insanlar üçün ən gözəl həyat tərzini, yaradılışlarına ən uyğun olan əxlaq anlayışını müəyyən etmiş və "Biz Quranda möminlər üçün şəfa və mərhəmət nazil edirik" (İsra surəsi, 82) ayəsi ilə Quranda bildirilənlərin möminlər üçün rəhmət olduğunu göstərmişdir.

Allahın razılığını və sevgisini qazanmağın yolu Quranda əmr edilənləri qüsursuz olaraq yerinə yetirməkdir. Allah qullarından həyatlarının sonuna qədər Quran əxlaqını axsamadan yaşamağı istəmişdir. Odur ki, möminlərin Allahın bu əmrini hər şəraitdə yerinə yetirməyinin sirri imandan irəli gələn səbirdə gizlənmişdir. Səbrin sirrini öyrənən insan Allahın ondan istədiyi davranışlarda iradə göstərər. Bu sirri öyrənmək çox asandır. Allah iman edən qullarının üzərində "Sabur" (çox səbirli) ismini təzahür etdirər və onların qəlbindəki qərarlılıq hissini möhkəmləndirər.

Ömür boyunca davam edən gerçək səbrin əsil qaynağı möminlərin Allaha olan imanlarıdır. İman edən mömin Allahın elminin və ağlının bütün varlıqları əhatə etdiyini, Onun izni olmadan heç bir hadisənin baş vermədiyini, həmçinin Allahın hər hadisəni minlərlə xeyir və hikmətlə yaratdığını bilir. Eyni zamanda, Allahın iman edənlərin dostu və vəlisi olduğunu bilir, hadisələr mənfi görünsə belə, hər şeyin inananların xeyrinə olduğunu unutmaz. Allahın onun üçün yazdığı qədərə tərəddüd etmədən təslim olar və qədərindən razı qalar. Buna görə də səbir mömin üçün məcburi yox, qəlbən yaşanan və zövq alınan ibadətdir. Beləliklə, Quranda Allahın insanlara öyrətdiyi həqiqi səbirlə cəmiyyətlərdə yaşanan səbir anlayışının fərqi  də budur.

Cəmiyyətin böyük qismi səbrin həqiqi mənasını, səbirli insanın necə davranmalı olduğunu və bunun Allah qatındakı əhəmiyyətini bilmir. İnsanların çoxu elə təsəvvür edir ki, səbir çətinlik və sıxıntılara sinə gərmək, bunlara dözüb tab gətirməkdir. Həmçinin belə inanc var ki, səbir müvəqqəti olur və zamanla tükənir. Bu yanlış anlayışa görə, hər hansı mənfəət əldə edilməyəcəksə, o şeydə səbir göstərmək yersizdir. Halbuki Quranda öyrədilən gerçək səbir bu təhəmmül anlayışından çox fərqlidir. İlk öncə qeyd etmək lazımdır ki, inananlar səbri Allahın əmri olaraq yaşayırlar və buna görə də heç vaxt onların səbri tükənib daşmaz. Həyatlarının sonuna qədər bu ibadəti şövqlə yerinə yetirərlər. Onlar Allah üçün səbir etdiklərinə görə bunun müqabilində hər hansı bir mənfəət qazanmağı güdmürlər. Çünki Allahın rizasını qazanmaq onlar üçün ən gözəl qarşılıqdır. Bundan başqa, Quranda tövsiyə edilən səbir yalnız çətinlik zamanı yaşanan xüsusiyyət də deyil. Həqiqi səbir şərtlərdən asılı olmayaraq, Quranın əmrlərini yerinə yetirməkdə, Allahın çəkindirdiyi hərəkətlərdən uzaq olmaqda və Quran əxlaqını ömür boyunca axsamadan yaşamaqda qərarlılıq göstərməkdir.

Allah Quranda "Sürəkli olan yaxşı əməllər isə Rəbbinin dərgahında savab və ümid baxımından daha əfzəldir" (Kəhf surəsi, 46) ayəsi ilə saleh əməllərdə mətanətli olmağı məqbul saymış və bütün qullarını səbirli olmağa dəvət etmişdir.

## KİMLƏR GÖZƏL TƏRZDƏ SƏBİR EDƏ BİLİR?

***Sən təmkinlə səbir et! (Məaric surəsi, 5)***

Səbrin həqiqi mənasını bilən və bunu Allahın bəyəndiyi şəkildə yaşayan yeganə topluluq möminlərdir. Çünki onlar Quranı özlərinə rəhbər təyin ediblər. Quran isə səbrin gerçək mənasını və Allah qatında hansı səbrin məqbul olduğunu açıqlayan tək qaynaqdır. Bu səbəbdən də Allahın ayədə əmr etdiyi kimi, gözəl tərzdə səbir edənlər yalnız Qurana tabe olan möminlərdir.

Möminlərin göstərdiyi bu səbrin qaynağı isə Allaha olan səmimi imanları və itaətləridir. Başqa mömin xüsusiyyətləri kimi səbir də ancaq imanı qavramaqla ortaya çıxır. Çünki iman etmək Allahdan başqa ilah olmadığını, Onun elminin

bütün varlıqları əhatə etdiyini, Allahdan başqa qədəri müəyyən edən güc olmadığını və Onun istəyindən xaric heç kimin fayda və ya zərər vermədiyini qavramaq deməkdir.

Möminlərin gözəl tərzdə səbirli olmağının başqa bir səbəbi də odur ki, onlar imanları sayəsində Rəbbimizin üstünlüyünü və ucalığını təqdir edə bilirlər. Allahın sonsuz ağıl və sonsuz elm sahibi olduğunu düşünən insan bilir ki, onun üçün ən gözəl həyatı ancaq Allah müəyyən edə bilər. Allah keçmişə və gələcəyə aid bütün məlumatları bilir. İnsanın ağlı isə məhduddur, həm də özünə nəyin xeyirli və nəyin zərərli olduğunu düşünərkən xəta edə bilər.

Çox vaxt mənfi kimi görünə hadisələr bir çox yöndən faydalı ola bilər. Lakin insanlar bunu bilmir. Allah Quranda "...Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bilmirsiniz" (Bəqərə surəsi, 216) ayəsi ilə bunu qullarına xatırlatmışdır. Buna görə iman edənlər bu elmin yalnız Allaha məxsus olduğunu bilib hər bir hadisə qarşısında təvəkküllü davranır və səbir edirlər. Başqa sözlə desək, gözəl tərzdə səbir edənlərin əsas xüsusiyyətlərindən biri odur ki, onlar qədər həqiqətini qavrayan təvəkküllü insanlardır.

Quranda möminlərin səbirli və təvəkküllü olduqlarına belə diqqət çəkilmişdir:

**(Onlar) səbirli olanlar və ancaq Rəbbinə təvəkkül edənlərdir. (Nəhl surəsi, 42)**

İman edənlərin səbirdə qərarlı olmalarının başqa səbəbi də budur ki, onlar Allah qorxusu ilə yaşayırlar. Onlar bilirlər ki, Allah qullarına sonsuz mərhəmət edən və onları çox sevəndir. Bundan başqa, Allahın əzabı da şiddətlidir. Allah Quranda Ona ibadət etməkdən üz döndərən təkəbbürlü insanları əzabla qorxudur. Möminlər də Allahın əzabından qorxub çəkinirlər. Buna görə də Allahın əmrlərinə ciddi yanaşır və səbirli davranırlar. Allah qorxusu onları ömürləri boyunca Quran əxlaqını dəqiqliklə yaşamağa yönəldir.

İman edənlər dünya həyatının gerçək üzünü bilirlər, bu da onların səbirli olmasında əsas səbəblərdən biridir. Quranda "Biz aranızdakı mücahidləri və səbir edənləri ayırd edib üzə çıxarmaq üçün sizi mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq" (Muhəmməd surəsi, 31) ayəsində bildirildiyi kimi, Allah ibadətdə səbirli olanları inkarçılardan ayırır. Bunun nəticəsində iman edənləri cənnətlərdə bənzərsiz mənzillərdə qonaq edəcək, inkarçılara isə sonsuza qədər qaçışın mümkün olmadığı cəhənnəmdə əzab verəcək. Dünyada hər hansı bir çətinliklə qarşılaşan möminlər bunu Allahın imtahan üçün yaratdığını bilir, bunlara səbir etməkdən əsla vaz keçmirlər. Çünki onlar bilir ki, ölümdən sonra hesab verəcəklər və səbirli olduqlarına görə bu gözəl əxlaqın qarşılığını alacaqlar. Belə ki, onların səbirli olmalarının səbəblərindən biri də budur: hesab gününə və axirətə yəqinliklə inanırlar. Səbirlə yanaşdıqları hər hadisənin hesab günü qarşılarına çıxacağını və Allahın səbirli olanları rəhməti ilə müjdələdiyini bildiklərinə görə səbirdə daha qərarlı olurlar.

Göründüyü kimi, Quranda bildirilən gerçək səbri yalnız möminlər yaşayırlar. Çünki Allaha səmimi iman edən, Rəbbimizin ucalığını təqdir edən, qədərə tam təvəkkül edən, Allahdan çox qorxan, dünyanın gerçək üzünü qavrayan və axirətin varlığına qəti inanan yalnız onlardır.

## MÖMİNLƏRİN SƏBRİ

***Səbir et! Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz.***

***(Hud surəsi, 115)***

Əvvəlki hissələrdə də üzərində dayandığımız kimi, möminlərin səbri ilə cəmiyyətin böyük qisminin adət etdiyi səbir anlayışı arasında böyük fərq var. Möminlər səbri Allaha yaxınlaşmağa bir yol kimi görür və ibadət olaraq yaşayırlar. Səbrin necə olduğunu müəyyən edən rəhbərləri isə Qurandır. Quranda möminlərin yaşadığı bu gözəl əxlaqın xüsusiyyətlərindən belə bəhs edilir:

**Möminlərin səbri təvəkkülə əsaslanır**

İnsanların çoxu ancaq zəruri hallarda və başqa çıxış yolları qalmadıqda səbir edirlər. Əslində isə səbirli olmağın belə davranışla heç bir əlaqəsi yoxdur. Onlar sinə gərməyə məcbur olduqları çətinliyə ancaq təhəmmül edirlər (dözürlər). Təhəmmül edən insanlar başına gələn hadisələri Allahın hikmətlə yaratdığını və hamısında xeyrin olduğunu düşünmədikləri üçün sıxıntı çəkirlər. Bu mənfi ruh halı danışıqlarında və üz ifadələrində özünü bəlli edir. Təhəmmül ediləsi vəziyyət sona çatana qədər bu əhvaldan qurtula bilmirlər.

Möminlərin göstərdiyi səbir isə təhəmmül anlayışından çox fərqlidir. Bir çətinliklə üzləşəndə bunu Allahın yaratdığını və mütləq xeyirli olduğunu bilirlər. Allahın onlara ən gözəl qədəri yazdığını bildiklərinə görə baş verənlərə qəlbən razı olub təvəkkül edirlər. Bir ayədə Allaha möminlər barəsində belə buyurur:

**O kəslər ki, səbirli olmuş və yalnız öz Rəbbinə təvəkkül etmişlər. (Ənkəbut surəsi, 59)**

Möminlər heç bir şərtdə şikayət və üzüntünü özlərinə yaraşdırmazlar. Bununla bərabər, "Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir" (İnşirah surəsi, 5) ayəsində də bildirildiyi kimi, Allahın çətinliyi asanlıqla birgə yaratdığından və bunun Allahın dəyişməyən qanunu olduğundan xəbərdardırlar.

Peyğəmbərimiz (səv) bir hədisdə belə buyurur:

**...Sən qəti imanla və tam razılıqla Allaha üçün çalışmağı bacarırsansa, çalış; əgər bacarmırsansa, xoşuna gəlməyən şeyə səbir etməkdə çoxlu xeyir var. Bunu da bil ki, nüsrət səbirlə birlikdə gəlir: qurtuluş isə sıxıntı ilə gəlir. Çətinlikdə asanlıq var. İki çətinlik bir asanlığa əsla qələbə çalmaz. (Kutubi-sittə, müxtəsər tərcümə və şərhi, prof. dr. İbrahim Canan, 16-cı cild, "Akçağ" Nəşriyyatı, Ankara , səh.315)**

Allah "Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər..." (Bəqərə surəsi, 286) ayəsində insanlara əhəmiyyətli bir həqiqətdən bəhs edir. Allah hər insanı ancaq öhdəsindən gələ biləcəyi çətinliklərlə imtahan edir. İnsan hər hansı çətinliklə qarşılaşırsa, deməli, Allah ona bunun üçün səbir gücü də vermişdir. Quranın bu ayələrinə iman edən möminlər səbri təhəmmül kimi qəbul etmirlər. Dünyada ikən bu çətinliklər sona çatmasa belə, bunda bir xeyir olduğunu və Allahın axirətdə səbrin qarşılığını ən gözəli ilə verəcəyini bilirlər. Bunu bildiklərinə görə heç bir zaman sıxıntı çəkməzlər. Hər çətinliyi yalnız Allahın yox edəcəyini və yalnız Ondan kömək istəməli olduğunu bilərək Rəbbimizə dua edirlər:

**... Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et! (Bəqərə surəsi, 286)**

**Möminlərin səbri daimidir**

**Davamlı olan yaxşı əməllər isə Rəbbinin dərgahında savab və ümid baxımından daha əfzəldir.** (Kəhf surəsi, 46)

Qurana əsaslanmadıqda insanlar səbirdə qətiyyət göstərə bilmirlər. Bir gün səbirli davranır, başqa gün isə çətin bir hadisə baş verdikdə buna səbir edə bilmirlər. Möminlər isə Allahın əmri olduğu üçün əsla belə davranmırlar. Möminlərin məqsədi odur ki, ömür boyunca gözəl əxlaq göstərməklə Allahın rizasını qazansınlar. Allahın ən bəyəndiyi davranış isə səbirdir. Çünki ayədə davamlı olan yaxşı əməllərin xeyirli olduğunu buyurur.

Başqa bir ayədə Allah inanan qullarına belə əmr edir:

**Səhər və axşam çağı Rəbbinin üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. (Kəhf surəsi, 28)**

Möminlər bu ayəyə tabe olaraq Allahın razılığını qazanmaq üçün ara vermədən səbirli davranırlar.

**Möminlər Allah rizası üçün səbirli davranırlar**

Quran əxlaqını yaşamayanlar bir müddət səbirli olduqdan sonra buna görə mütləq mənfəət əldə etməyi düşünürlər. Belə bir şey olmayanda isə öz ifadələri desək, səbirləri tükənir. Çünki onlar yalnız dünyəvi mənfəətlər üçün səbirli olurlar. Bunu unudurlar ki, gözəl əxlaq onlara Allah rizasını qazandıracaq və etdikləri axirətdə qarşılarına çıxacaq. Halbuki Allah çətinlikləri səbir edənləri ortaya çıxarmaq üçün yaradır. Allah bu sirri insanlara *"Yoxsa elə güman edirdiniz ki, Allah içərinizdən cihada çıxanları və səbir edənləri bəlli etmədən siz cənnətə daxil olacaqsınız?"* (Ali-İmran surəsi, 142) ayəsində bildirir. Allahın rizasını qazanmaq üçün səbirli davrananlar cənnətə girəcək, dünyəvi faydalar üçün səbir edənlər isə Allahın vəd etdiyi gözəllikdən məhrum qalacaqlar.

Quranı özlərinə rəhbər götürən möminlər heç bir mənfəət güdmədən yalnız Allah rizası üçün səbir göstərirlər. Quranda onların bu xüsusiyyətindən belə bəhs edilir:

**O kəslər ki, Rəbbinin üzünü diləyərək səbir edirlər... (Rəd surəsi, 22)**

**Möminlər sevərək və istəyərək səbir edirlər**

Möminlər yalnız çətinliklər qarşısında deyil, eyni zamanda Quranın bütün hökmlərini qüsursuz şəkildə yerinə yetirmək üçün və bütün şərtlərdə mükəmməl əxlaq göstərmək üçün səbirli davranırlar. Onların bütün vəziyyətlərdə bu əxlaqı göstərməyinin səbəblərindən biri bunu qəlbən və şövqlə etmələridir. Çünki onlar üçün Allahın əmrini yerinə yetirməkdən daha əhəmiyyətli iş yoxdur. Buna görə də Qurandakı bütün hökmlərdə olduğu kimi, gözəl əxlaqı da istəyərək və sevərək yaşayırlar. Beləliklə, Rəbbimizin sevgisini və rəhmətini qazanacaqlarını bilmək onların hər şərtdə səbirli olmalarına və çətinlikləri rahatlıqla aşmalarına kömək edir. Bundan başqa, Allahın bir ayədə "Rəbbin üçün səbir et" ifadəsi ilə qullarını səbirli olmağa dəvət etməsi də onların bu əxlaqı xoşluqla yaşamasına vasitə olur. Möminlərin səbirli davranmalarının digər səbəbi isə Allahın Quranda səbir edənləri sevdiyini bildirməsidir. (Ali-İmran surəsi, 146). Yenə Quranın başqa ayəsində "***Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir***!" (Rəd surəsi, 24) hökmü ilə səbir edənlərin axirətdə gözəl qarşılıqla mükafatlandırılacaqları bildirilmişdir.

Bütün bunlar möminlərin səbri şövq və istəklə yaşamalarına səbəb olan Allahın müjdələridir.

**Möminlərin səbri şəxslərə və şərtlərə görə dəyişmir**

Allah qorxusu və imanı az olan insanların davranışları şəxslərə və şərtlərə görə dəyişə bilir. Məsələn, mənfəət əldə edəcəkləri insanlarla gözəl davrandıqları halda, tanımadıqları və ya özlərindən aşağı gördükləri insanlarla sərt davranırlar. Buna misal olaraq, cəmiyyətdə bir mağaza sahibinin zəngin müştəriyə hörmət göstərməsi gündəlik həyatda çox rast gəlinən hadisədir. Üstəlik həmin müştəri problem çıxarsa da, alçaldıcı hərəkətlərə yol versə də, onun çirkin hərəkətlərinə göz yumurlar. Lakin eyni mağaza sahibi kasıb müştərinin haqlı istəyini belə xoş qarşılamaz. Bundan başqa, dindən uzaq insanlar mənfəətlərinə uyğun olduqda ona yaxşı davrananlara gözəl əxlaq göstərə, lakin çətin vaxtlarda tamamilə dəyişə bilirlər. Yaxın dostları onları əyləndirib xeyir verdiyi müddətcə onlarla xoş davranırlar. Amma bir gün həmin adam çətinliyə düşsə, problemləri olsa, onunla səbirsiz davranmağa başlayırlar. Bu dəyişkənliyin səbəbi budur ki, onlar əxlaq anlayışını hər şeyi ən doğru şəkildə açıqlayan Qurana görə deyil, öz cahil düşüncə və mənfəətlərinə görə müəyyən edirlər. Möminlər isə Allahın Quranda bildirdiyi əxlaqı mənimsəyib bunu yalnız Allahın razılığını qazanmaq üçün yaşayırlar. Buna görə də davranışları, ən əsas da səbirləri şəxslərə, mühitə və şərtlərə görə dəyişmir. Möminlər başqalarından fərqli olaraq çətinlik və sıxıntı vaxtlarında da gözəl şəkildə səbir edərlər.

Quranda onların bu üstün əxlaqına belə diqqət çəkilir:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl (sahibləri) Allaha, axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

Ayədən göründüyü kimi, Allah yaxşı əməllərdən birinin də çətin anlarda səbir etmək olduğunu bildirir. Möminlər də Allahın bu əmrinə tabe olur və ömrü boyu hər cür çətinliyə səbir edirlər.

### Möminlərin səbri onlara gözəl əxlaqın yolunu açır

Möminlər səbri Allah üçün edilən ibadət kimi görürlər, bu da onlara daha gözəl xüsusiyyətlər qazandırır. Bir ayədə belə buyurulur:

**Səbir edənlər doğru danışan, müti olan, xərcləyən və sübh çağına yaxın bağışlanma diləyən kimsələrdir. (Ali-İmran surəsi, 17)**

Bir başqa ayədə Allah möminləri *"O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir"* (Ali-İmran surəsi, 134) sözləri ilə təsvir edir. Ayədə bəhs edilən bütün bu xüsusiyyətlər ancaq həqiqi səbir anlayışını qavramaqla yaşana bilər.

Bir insan əsəbiləşəndə qəzəbini yalnız səbirlə boğa bilər. Yoxsul olduğu halda, ancaq səbirli davranarsa, malından başqalarına verə bilər. Çünki həmin adam, bəlkə də, başqasına malından verməklə özünü çətin vəziyyətdə qoyur, lakin Allah rizası üçün buna səbir edir və gözəl əxlaq göstərir. Bir adamın haqlı olduğu halda, haqsız birini bağışlaması da yenə səbrin ona qazandırdığı xüsusiyyətdir.

Bunun kimi Allahın Quranda bildirdiyi bütün əmrlərə tabe olmaq və qadağan etdiklərindən çəkinmək ancaq səbirlə mümkündür. Mömin həyatının sonuna qədər fədakarlıq, təvazökarlıq, dürüstlük və sədaqətdə daim qərarlı olar və bu əxlaq xüsusiyyətlərini səbirlə yaşamağa davam edər.

Göründüyü kimi, səbir möminlərə həm də Allahın razı olduğu gözəl əxlaqın yolunu açır. Bu əxlaqı yaşamaq isə Allahın sonsuz rəhmətini və cənnətini qazanmağa vəsilə olur ki, möminlər üçün bundan daha gözəl qurtuluş yoxdur.

### Möminlərin səbri ağıla əsaslanır

Möminlərin səbri çətinlikləri ortadan qaldırmaq üçün heç bir cəhd etmədən yalnız gözləməkdən ibarət deyil, belə davranış çox yanlışdır. Əksinə, Allah möminlərə vicdan, ağıl və imkanlarından sonadək istifadə etməyi, hər cür tədbir almağı əmr etmişdir. Buna görə də möminlər bir yandan çətinliklərə könül xoşluğu ilə səbir edir, digər tərəfdən var gücləri ilə çətinliyi aradan qaldırmağın yollarını axtarırlar.

Məsələn, təcili görüləcək bir işin baş tutmaması səbirli olmayanların qəzəbinə səbəb olur. Xüsusilə böyük gəlir gətirəcək işdə birisinin xətası üzündən qazancı əldən vermək hər şeydə xeyir olduğunu anlamayan insanları qəzəbləndirir. İman gətirənlər isə itirdikləri qazanc nə qədər çox olsa da, təvəkkül edir və səbirli davranırlar. Əlbəttə ki, bundan sonra bənzər hadisə baş verməsin deyə lazımi tədbiri alır. Xəta edənə xəbərdarlıq edir, eyni xətaya yol verəcəyini güman edirsə, işi ondan alıb başqasına tapşırır və ya şərtlərə uyğun olaraq daha ağıllı tədbirlər alır.

Quranda bəhs edilən səbir anlayışını bilməyənlər elə düşünürlər ki, səbir heç bir iş görmədən oturub gözləməkdir. Halbuki Allah qatında məqbul olan səbir çətinliklər zamanı ağıl, vicdan və maddi-mənəvi bütün imkanlardan istifadə etməyi tələb edir. Quranda möminlərin səbirlə yanaşı cəhd göstərmələrinə bir çox ayədə diqqət çəkilir. Bunun bir nümunəsini hicrət edənlərdə görmək mümkündür. Ayədə belə buyurulur:

**...Sonra hicrət edənləri, daha sonra cihad edib səbir edənləri isə bunlardan sonra Rəbbin, şübhəsiz ki, bağışlayandır, (onlara) rəhm edəndir! (Nəhl surəsi, 110)**

Bununla yanaşı, möminlər bir tərəfdən çətinliklərlə feili mübarizə apararar, digər tərəfdən də dua ilə Allahdan yardım istəyib cəhdlərinə davam edərlər.

**Onlar Calutun və onun qoşununun qarşısına çıxdıqda dedilər: "Ey Rəbbimiz! Bizə səbir ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" (Bəqərə surəsi, 250)**

Göründüyü kimi, möminlərin səbri ağıla əsaslanır, Allah qatında gözəl qarşılıq görəcək davranış da budur.

**Möminlər səbirdə sərhəd tanımayıb, səbirdə yarışırlar**

*"Xeyr! İnsan, doğrudan da, həddini aşır, özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə" (Ələq surəsi, 6-7)* ayələrində bildirildiyi kimi, insanın özünü kamil görməsi onu azğınlığa aparır. Buna görə də ən yaxşı xüsusiyyətlərində belə möminlər özlərini kamil görməzlər. Ömrü boyu hər mövzuda özlərini inkişaf etdirməyə və daha gözəl əxlaqlı olmağa çalışırlar.

Möminlərin səmimi cəhdlərinin arxasında Allaha olan bağlılıq və Allah qorxusu dayanır. Əsas məqsədləri Allahın sevgisini qazanmaq olduğu üçün Onun əmr etdiyi kimi, Quran hökmlərinin hamısına əməl etməyə çalışırlar. Buna görə də heç vaxt özlərini ehtiyacsız görmür, daim daha çoxuna nail olmaq üçün cəhd göstərirlər. Çünki Allah qatında əzmkarlıqları qədər əcr qazanacaqlarını və bu minvalla Allahın rəhmətinə çatacaqlarını bilirlər. Allah bir ayədə *"Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan cənnətə tələsin" (Ali-İmran surəsi, 133)* sözləri ilə möminləri Allahın rizasını və cənnətini qazanmaq üçün yarışmağa çağırmışdır. Bu mövzulardan biri də Allahın Quranda *"Ey iman gətirənlər! Səbir edin və səbirdə yarışın"* (*Ali-İmran surəsi, 200*) sözləri ilə bildirdiyi səbirdir. Möminlər onları Allaha yaxınlaşdıran əməldə nümunəvi davranmaqla bir-birləri ilə yarışırlar. Allaha iman gətirən insan başına nə iş gəlsə də, səbirli davranıb bunu sonadək davam etdirməkdə qərarlı olar. Məsələn, bir insan dünya imtahanının gərəyi olaraq bir çox problemlə üzləşə bilər. Heç gözləmədiyi anda evi yanar və bu səbəbdən bir müddət pis şəraitdə yaşamağa məcbur qalar. Belə vəziyyətdə iman gətirən insan əsla şikayət etməz. Çətinliyi nə qədər uzun çəksə də, səbirli davranar, Allahın ona asanlıq yaradacağını bilib hüzurlu olar. Belə çətin vəziyyətdə başqa sıxıntılar da əlavə olunsa həyatında, səbirli davranışını heç dəyişməz. Qısa olaraq, nə qədər çətinliklərlə qarşılaşsa da, Allahın əmrini yerinə yetirməkdən, yəni səbirdə yarışmaqdan vaz keçməz.

**Möminlər bir-birilərinə səbri tövsiyə edirlər**

Allah *"Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır"* (Ali-İmran surəsi, 104) ayəsi ilə əmr edir ki, möminlər bir-birilərini pislikdən çəkindirsin və xeyirli əməllərə təşviq etsinlər. Allahın bu əmri əsasında möminlər həyatlarının sonuna qədər bir-birilərini Quranın əmrinə tabe olmağa çağırır və qadağan etdiyi şeylərdən çəkindirməyə çalışırlar. Onların təşviq etdiyi mövzulardan biri də səbirdir. Çünki möminlər ancaq Allahın bəyəndiyi əxlaqı yaşayanların cənnətə qovuşacaqlarını, digər insanların isə cəhənnəm əzabı ilə qarşılıq görəcəklərini bilirlər. Bu həqiqəti bildiklərinə görə özlərinin sonsuz qurtuluşunu nə qədər istəyirlərsə, mömin qardaşlarının cənnətə girməyini də o qədər arzu edirlər. Elə bu səbəbdən onları bütün ibadətlərində səbirli olmağa çağırır və bunu ömrü boyu səbirlə davam etdirirlər. Quranda bəhs edilən bir hadisə buna nümunədir, hansı ki Peyğəmbərimiz yanındakı şəxsə Allahı xatırlatmış və ümidvar olmağını istəmişdir:

**Əgər siz (Peyğəmbərə) kömək etməsəniz, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq (Məkkədən) çıxartdılar. O iki nəfər mağarada olarkən biri öz yoldaşına dedi: "Qəm yemə, Allah bizimlədir!" (Bundan sonra) Allah ona arxayınlıq nazil etdi... (Tövbə surəsi, 40)**

Ayədən göründüyü kimi, Peyğəmbərimiz çətin durumda ikən yanındakı dostuna Allahın yardımını xatırlatmışdır. Peyğəmbərimizin (səv) bu gözəl davranışı, şübhəsiz ki, bütün müsəlmanlara nümunədir. İnananlar bir-birinə bütün şərtlərdə Allahın gücünü və yardımını xatırladıb səbri tövsiyə edərlər ki, bu da əxlaq üstünlüyüdür. Quranda belə üstün əxlaqlı şəxslər "əshabi-meymənə" olaraq adlandırılır:

**Ona iki yoxuşlu yola yönəltmədikmi?**

**O isə sərt yoxuşu aşmağa can atmadı.**

**Sən nə bilirsən ki, sərt yoxuş nədir?**

**O, bir kölə azad etməkdir**

**və ya aclıq günündə yemək verməkdir –**

**qohumluq əlaqəsi çatan bir yetimə,**

**yaxud yerə uzanmış kasıba!**

**Sonra isə o, iman gətirən, bir-birinə səbir və mərhəmət tövsiyə edənlərdən olmaqdır.**

**Onlar sağ tərəf sahibləridir (əshabi-meymənə). (Bələd surəsi, 10-18)**

## MÖMİNLƏR HANSI ŞEYLƏRƏ SƏBİR EDİRLƏR?

***Səbir edib yaxşı işlər görənlər istisnadır.***

***Məhz onlar üçün bağışlanma və böyük bir mükafat vardır. (Hud surəsi, 11)***

Əvvəlki hissələrdə Quranda səbrin necə təsvir edildiyindən və iman gətirənlərlə dindən uzaq insanların səbir anlayışı arasındakı fərqlilikdən bəhs etdik. Bu hissədə isə möminlərin hansı şeylərə səbir etdiyini izah edib bunu inkarçıların davranışları ilə müqayisə edəcəyik. Lakin bu mövzunu araşdırmamışdan əvvəl onu qeyd edək ki, Allah dünyada istədiyi zaman istədiyi quluna müxtəlif çətinlik verib onu imtahan edə bilər. Bu imtahan bir anlıq da ola, uzun da sürə bilər. Bunu təqdir edən Allahdır. Lakin bu bir həqiqətdir ki, axirətdə olduğu kimi, dünyada da bütün şərtlərdə ən gözəl həyat möminlərindir. Allah bu durumu bir ayədə belə bildirir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

Möminlər Allahın imtahan üçün yaratdığı çətinliklərə səbir edirlər və bunun nəticəsində də Allah bu çətinlikləri asanlaşdırır və onları yardımı ilə dəstəkləyir. Quranda Allahın iman gətirən qullarına yardımı belə buyurulur:

**...Allah Ona yardım edənlərə mütləq yardım edər. Şübhəsiz ki, Allah qüvvətlidir, qüdrətlidir. (Həcc surəsi, 40)**

Növbəti səhifələrdə möminlərin səbir göstərdikləri mövzulardan bəhs ediləcək.

### Vicdanlarından ömrü boyu səbirlə istifadə edirlər

Allah insanda hər zaman doğrunu ilham edən vicdan yaratmışdır. Vicdan insanları Allahın bəyəndiyi kimi düşünməyə və Allahın razı olduğu həyatı yaşamağa çağırır. Hər insanda vicdanla yanaşı, bir də onu istək və həvəslərinə yönəltməyə çalışan nəfs var. İman gətirənlər ömrü boyu qarşılaşdığı hadisələrdə nəfslərinə tabe olmayıb vicdanlarının səsinə qulaq

asırlar. Nəfsin istəkləri daha cəlbedici görünsə də, səbirli olub vicdanlarını dinləyir və doğruları yerinə yetirirlər. Möminlər daima götür-qoy edib ən doğru davranışı seçirlər. Buna misal olaraq Peyğəmbərimizin dövründə yaşamış saleh müsəlmanları nümunə göstərmək olar. "Nur" surəsindəki örtünmə ilə əlaqədar ayələr hicrətdən sonrakı dövrlərdə endirilmişdir. Həmin dövrdəki müsəlman qadınların gözəl davranışlarından belə bəhs olunur:

*Şeybə qızı Safiyə danışır və deyir:*

*"Biz hz.Aişənin yanında ikən bir neçə xanım qüreyşli qadınların vəziyyətindən və fəzilətlərindən bəhs etmişdirlər. Bu zaman hz.Aişə belə buyurdu: "Qüreyşli qadınlar üstündürlər. Lakin Allaha and olsun ki, mən ənsarın qadınlarından daha çox Allahın kitabını təsdiq edən və Qurana inanan fəzilətli insanlar görmədim. "Nur" surəsindəki "örtüklərini yaxalarının üzərinə çəksinlər" ayəsi nazil olanda kişilər onların yanına gedib bu ayəni oxudular. Hamı zövcəsinin, qızının, bacısının və yaxınlarının yanında bu ayəni oxuyurdu. İçlərindən bu ayəyə əməl etməyən heç kim qalmadı. Allahın endirdiyi hökmlərə inandıqlarına görə örtündülər ..." (İbni-Kəsir, Hədislərlə Qurani-kərim təfsiri, cild 11, səh.5880)*

Peyğəmbərimizin dövründə mömin qadınlar Allahın təsəttür əmrini yerinə yetirib bunu şövq və istəklə qarşılamışdılar, vicdanlarına tabe olub itaət etmişdilər. Onlardan sonra gələn müsəlmanlar da eyni şövq və qərarlılıqla bu əmri yerinə yetiriblər.

Müsəlmanın vicdanlı davranışına dair gündəlik həyatdan başqa nümunələr də verə bilərik. Bəzən insanın nəfsi onu eqoist olmağa çağırdığı halda, vicdanı isə fədakar davranmağı ilham edir. Bir insan məşğul və yorğun ikən təcili köməyə ehtiyacı biri ondan kömək istəyə bilər. Elə vəziyyət yarana bilər ki, ona lazım olan bir şeyi daha çox ehtiyacı olan birisi ilə bölüşsün, hətta əlindəkilərinin hamısını o adama versin. Vicdanını dinləyən adam heç tərəddüd etmədən ehtiyacı olanlara əlindən gələn köməkliyi əsirgəməz. Quranda Peyğəmbərimizin dövründə yaşayan müsəlmanların əxlaqından belə nümunə verilir:

**(Mühacirlərdən Mədinədə) əvvəl (orada) yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.** (Həşr surəsi, 9)

Möminlərin Quranda göstərilən bu nümunəvi və vicdanlı əxlaqı səbrin nəticəsidir.

### Səbirli davranıb şeytanın səsini dinləmirlər

Allah ilk insanı, yəni hz.Adəmi yaradanda bütün mələklərin ona səcdə etməsini istəmiş, ancaq təkcə iblis Allahın bu əmrinə qarşı çıxıb səcdə etməmişdir.

Şeytanın bu təkəbbürünün əvəzində Allah onu cənnətdən çıxarmış və din gününə qədər lənətləndiyini bildirmişdir. Şeytan isə insanların dirildiləcəyi günə qədər Allahdan möhlət istəmiş, bu zamana qədər insanlara vəsvəsə verərək onları dünya həyatı ilə aldatacağını söyləmişdir. Allah şeytana din gününə qədər izin verib onun Öz səmimi qullarına təsir edə bilməyəcəyini buyurmuşdur:

**(İblis) dedi: "Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə mən də yer üzündə onlara (pis işləri) gözəl göstərib onların hamısını azdıracağam. Yalnız Sənin sadiq qullarından başqa". (Allah) dedi: "Bu, Mənə tərəf gətirib çıxaran düz yoldur. Şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur. Yalnız sənə uyan azğınlar istisnadır". (Hicr surəsi, 39-42)**

Göründüyü kimi, şeytan hz.Adəm yarandıqdan sonra insanlara qarşı mübarizəyə başlamış, onlara vəsvəsə verərək Allahın yolundan azdırmaq üçün and içmişdir. Odur ki, insanın səbirli davranmaqda məsuliyyət daşıdığı şeylərdən biri də şeytanın oyunlarına qarşı ayıq olub ondan gələn vəsvəsələri dinləməməkdir.

Şeytan din gününə qədər yaşayacaq bütün insanlara müxtəlif vəsvəsələrlə yaxınlaşmağa çalışır. İnsanlar gündəlik həyatda şeytanın bu təsirlərinə tez-tez rast gəlirlər. Çünki şeytan heç ummadıqları yerdən onlara yaxınlaşır. Onlara qorxu

və unutqanlıq verir, xeyirli işləri təxirə salmağı təlqin edir. Məsələn, bir insan Allah rizası üçün kasıblara kömək etmək barədə düşünərkən şeytan onu kasıblıqla qorxudur. Yaxud da dinə və müsəlmanlara faydalı işi unutdurmağa çalışır. Ancaq ayədə deyildiyi kimi, şeytanın hiyləsi çox zəifdir. (Nisa surəsi, 76)

Rəbbimizə təvəkkül edib səbirli olanlara şeytan heç bir təsir edə bilməz. Çünki Allah şeytanın ancaq özü kimi inkar edənləri yoldan azdıracağını buyurur. Quranda "Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O eşidəndir, biləndir" (Əraf surəsi, 200) ayəsi ilə iman gətirənləri şeytanın vəsvəsələrindən qorunmaq üçün Özünə sığınmağa çağırmışdır. Allahın bu əmrin tabe olan möminlər həyatlarının sonuna qədər şeytanın oyun və hiylələrinə qarşı səbirlə mübarizə aparırlar. Onun insanları cəhənnəmə sürükləmək üçün daim fəaliyyət göstərdiyini əsla unutmurlar. Əgər xeyirli işlərdə daxilən tənbəllik hiss etsələr, bunun şeytanın vəsvəsəsi olduğunu bilib tez Allaha sığınır və o işə daha da şövqlə başlayırlar. Bir ayədə belə buyurulur:

**Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (Allahı) xatırlayar və dərhal (gerçəyi) görərlər. (Əraf surəsi, 201)**

Allahın "Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir!" (Bəqərə surəsi, 153) tövsiyəsini dinləyib səbirlə şeytandan qorunmaq üçün Rəbbimizdən yardım istəyirlər və vəsvəsələrdən üz çevirirlər:

**De: "Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!" (Muminun surəsi, 97-98)**

## Gözəl əxlaqı yaşamaqda səbirli olurlar

Allah bütün insanlara Qurana tabe olmağı və onda təsvir edilən gözəl əxlaqı yaşamağı buyurmuşdur. İnsanların hesab günü sorğu-sual ediləcəkləri mövzulardan biri də Quran əxlaqını yaşayıb-yaşamadıqlarıdır. Dünyada gəlib-getmiş insanların hamısı buna görə xəbərdar edilib və Allahın razı olduğu əxlaqı yaşamağa dəvət ediliblər. Fəqət Allahın bu çağırışına tabe olanlar yalnız  iman gətirənlərdir.

Din əxlaqından uzaq cəmiyyətlərdə də Quranda təsvir edilən gözəl əxlaqın bəzi yönlərini yaşayan insanlar vardır. Onlar yeri gəldikdə fədakar, mərhəmətli və ədalətli davranırlar. Lakin həmin insanlar nə qədər gözəl əxlaqlı olduqlarını iddia etsələr də, səbirli davranmadıqları vaxtlar mütləq olur. Təsəvvür edin ki, vacib iclasa tələsən birisi səhər vaxtında dura bilmir. Tələm-tələsik durub həyəcanla evdən çıxır və bu dəfə yolda tıxaca düşür. Gecikdiyini xəbər vermək üçün işə zəng vurmaq istəyir, lakin dalğa tutmadığından xəbər verə bilmir. Bu zaman yanındakı insan ondan bir söz soruşanda ona xoş cavab vermir, hətta tərs-tərs baxır. Həmin adam özünə görə hər zaman anlayışlı və yardımsevər olduğunu iddia etsə də, belə durumda səbrinin tükəndiyini deyir və kobud davranır.

Quran əxlaqını yaşamayan insanlar gün ərzində bəzi hadisələrə lazımsız yerə əsəbiləşirlər. Məsələn, katibəsi əhəmiyyətli bir sözü unudub ona deməyəndə, evdə uşaq dəyərli bir əşyanı qıranda və ya xanımı yeni aldığı avtomobili harasa vuranda özündən çıxırlar. Quran əxlaqını yaşamayan insanlar belə hallarda, əsasən, özlərindən çıxıb kobud davranırlar. Belə ki, bunların səbəbi Allahın əmr etdiyi əxlaqı yaşamaqda səbirli olmamaqdır.

Quranın əmr etdiyi gözəl əxlaqı isə ancaq səbirli olanlar yaşaya bilirlər. Bu insanların ən əhəmiyyətli xüsusiyyətlərindən biri şərtlərə və şəxslərə görə dəyişməmələridir. Məsələn, bir insan əsəbi xarakterə sahib ola bilər. Amma Allahın möminlər üçün buyurduğu "... qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir" (Ali-İmran surəsi, 134) ayəsini öyrəndikdə səbirli davranıb bağışlayır. Hətta həyatı boyu əsəbiləşdirici hərəkətlərə ard-arda rast gəlsə də, reaksiyasını dəyişməz. İman gətirənlər hər nə olsa da, qəzəbini boğub səbirli olar, Quranda əmr edilən əxlaqdan üz döndərməzlər.

İnsanın əxlaqını gözəlləşdirən o əxlaqı yaşamaqda göstərdiyi səbir və iradədir. Mömin təkcə əfvedici olmamalı, ehtiyac zamanı belə fədakar davranmalı, eyni zamanda cəsarətdə, təvazökarlıqda, sevgidə və hörmətdə hər zaman iradə göstərməlidir. Çünki Allah "O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol!.." (Məryəm surəsi, 65) ayəsi ilə möminlərə ibadətdə qərarlı olmağı əmr etmişdir. Allahın başqa bir əmri isə pisliklərə gözəlliklə cavab verməkdir. Belə ki, Quranda möminlərin səbir sayəsində pislikləri ən gözəl tərzdə uzaqlaşdırdıqlarına diqqət çəkilmişdir:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu isə ancaq səbir edənlərə verilir və ancaq böyük qismət sahiblərinə nəsib olur. (Fussilət surəsi, 34-35)**

Möminlərin səbirli olmalarının nəticəsində isə Allah onlara ən gözəl mükafat verib cənnətə salacaq. Bunu xəbər verən ayə belədir:

**Sizdə olan nemətlər tükənəcək, Allahın dərgahında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Nəhl surəsi, 96)**

### Allahdan başqa heç bir şeydən qorxmamaqda səbirli olurlar

Allahın gücünü və böyüklüyünü qavramayan insanlar yer üzündə canlı-cansız hər şeydən qorxa bilirlər. Bəziləri insanlardan qorxur, bəziləri də qaranlıqdan, rəngdən və ya rəqəmlərdən qorxurlar.

Möminlər isə gücün tək sahibin Allah olduğunu və Onun izni olmadan heç kimin bir başqasına zərər və ya fayda verməyəcəyini bilirlər. İnsanların və ya digər varlıqların heç birinin Allahdan müstəqil güclərinin olmadığını, hər birinin Allahın nəzarətində olduğunu unutmurlar. Əgər hər hansı çətinliklə qarşılaşsalar, bunu ancaq Allahın aradan qaldıra biləcəyinə ürəkdən inanırlar. Buna görə də Allahdan başqa heç kimdən və heç bir şeydən qorxmurlar. Allah bir ayədə möminləri Özündən başqa heç bir şeydən qorxmamağı belə xəbərdar edir:

**O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun! (Ali-İmran surəsi, 175)**

Möminlər Allahdan qorxub Ona çox güvəndiklərinə görə qarşılaşdıqları qorxuducu hadisələrin heç birindən narahat olmurlar. Başqalarının təzyiqi və məhdudiyyəti onları Allah üçün yaşamaqdan, eləcə də Onun rizası üçün cəhd etməkdən əsla kənarlaşdıra bilməz. Quranda möminlərin bu xüsusiyyətindən belə bəhs olunur:

**(Bəzi) adamlar onlara: "Camaat sizə qarşı (ordu) toplayıbdır, onlardan qorxun!" -dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O, nə gözəl qoruyandır!" -dedilər. (Ali-İmran surəsi, 173)**

Möminlər çətinliklər və bütün qorxuducu hadisələr qarşısında səbirlidirlər, Allahdan başqasından qorxmaz və imanlarından dönməzlər. Allah həqiqi iman gətirənlərlə iman gətirməyənləri və ya imanı zəif olanları ayırd etmək üçün insanları qorxu ilə imtahan edəcəyini bildirmişdir. İmanda səbirli olanlara isə belə müjdə verir:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. (Bəqərə surəsi, 155)**

### Mallarına zərər gəldikdə səbirli olurlar

Allah dünya həyatını müxtəlif gözəlliklərlə bəzəmiş və insanı bunlardan zövq alacaq şəkildə yaratmışdır. İnsan isə ona verilən nemətlərdən gözəl istifadə etməli, lakin heç vaxt bunlara həvəslə bağlanmamalıdır. Çünki dünyada qazanılan şeylər elə bu dünyada qalacaq və insanlar Rəbbimizin hüzurunda bunlardan necə istifadə etdiklərinə dair hesab verəcəklər. Nemətlərin Allahın lütfü olduğunu bilib şükür edənlər mükafatlandırılacaqlar və axirəti unudub yalnız bu nemətləri əldə

etmək üçün cəhd göstərənlər isə çox məyus olacaqlar. Allah Quranda insanlara verilən bu nemətlərin bəzilərindən belə bəhs etmişdir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. (Ali-İmran surəsi, 14)**

Belə ki, möminlər Allahın onlara verdiyi nemətlərdən ən gözəl şəkildə istifadə edir, lakin heç vaxt onlara bağlanmırlar. Dünyadakı hər şey kimi mal-mülkün də imtahan üçün insanlara verildiyini bilirlər. Bütün bunların keçici, əsil nemətlərin isə axirətdə olduğunu düşünərək dünyaya həvəs göstərmirlər. Möminlər dünyaya meyil etmədiklərinə görə bu mövzuda hər hansı çətinliklə üzləşdikdə rahatlıqla səbir edirlər. Sahib olduğu şeyləri itirəndə və ya malları azalanda üzülməzlər. Bir insan illərlə çalışıb bir çox şey əldə edə və bir gün heç gözləmədiyi anda qazandıqlarını itirə bilər. Məsələn, evi yana, bağ-bağçası dağıla bilər, yaxud da işləri pisləşib iflasa uğraya bilər. Bunlar dünyada insanların tez-tez rastlaşdığı hadisələrdir. Belə vəziyyətlərdə imanlı olanlar səbirlə Allah yönəlirlər. Bu hadisələrin səbir və təvəkkül göstərməsi üçün xüsusi yaradılmış imtahan olduğunu bilirlər. Allahın mütləq asanlıq yaradacağını, yəni bir yol açıb xeyirə çatdıracağını, axirətdə də səbirli olduqları üçün daha gözəlinə nail olacaqlarını düşünüb rahat yaşayırlar.

Dünyaya həvəslə bağlanan insanlar isə illərlə əmək sərf edib yığdığı var-dövlətə zərər gəldikdə təvəkkül etməyib üsyankar davranırlar. Onlar malın gerçək sahibinin Allah olduğunu, dilədikdə onlardan alıb daha xeyirlisini verə biləcəyini unudurlar. Buna görə də Allahın imtahan üçün yaratdığı hadisədə xeyri görə bilməyib səbirli davranmırlar.

"*Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz ..." (Ali-İmran surəsi, 186)* ayəsi ilə Allah üçün səbirli olan möminlərlə dünyaya qapılıb axirəti unudanlar arasındakı fərq ortaya çıxır. Möminlər mallarını itirdikləri üçün üzülməzlər, çünki onlar maddi-mənəvi hər şeyi Allahın rizasını qazanmaq üçün niyyət ediblər. Möminlərin Allaha göstərdiyi bu sədaqət isə Quranda belə xəbər verilir:

**Doğrudan da, Allah möminlərdən cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. (Çünki) onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. (Bu, Allahın) Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur. (Tövbə surəsi, 111)**

### Aclıq və yoxsulluq zamanı səbirli olurlar

Əvvəlki hissələrdə də bildirdiyimiz kimi, Allah insanları dünyada qorxu, xəstəlik, mal qıtlığı və s. kimi şeylərlə imtahan edir. Belə ki, Quranda diqqət çəkilən imtahan mövzularından biri də aclıq və yoxsulluqdur. Lakin bunu qeyd etmək lazımdır ki, Allah hər insan üçün müxtəlif imtahan mühiti yaradır. Buna görə də Quranda bildirilən bu imtahanlarla hər insan fərqli şəkildə qarşılaşa bilər. Allah eyni mövzunu insanlar üçün çox müxtəlif formalarda yaradar və gözləmədikləri bir yerdən onları imtahan edər, bu da imtahanın sirridir. Həqiqi iman gətirib təvəkkül edənlər Quranda bildirilən çətinliklərlə qarşılaşanda buna hazır olurlar. Bu onların imanlarını və Allaha olan itaətlərini göstərir.

İnkarçılar belə vəziyyətlərdə təvəkkülsüz davranırlar. Ömürləri boyu dünyada qarşılaşdıqları saysız neməti onlara Allahın verdiyini unudur və bunlara görə Rəbbimizə şükür etmirlər. Üstəlik bu nemətlərdən bircə dənəsi belə əllərindən alınsa, o dəqiqə nankorluqla Allaha üsyan edirlər. Din əxlaqından uzaq cəmiyyətlərdə bunun nümunələrinə çox rast gəlinir. Zəngin bir adam hər hansı səbəbdən malını itirə və Allahın ona verdiyi bir çox nemətdən məhrum ola bilər. Zəngin olarkən sahib olduğu evlərin, avtomobillərin, çeşid-çeşid yeməklərin və s. uca Allahın lütfü olduğunu düşünməmiş, hamısının özünə aid olduğunu zənn etmişdir. Yoxsul olduqda isə mal-mülkünün əlindən çıxmasına görə nankorluq edər. Düşdüyü çətin vəziyyətə görə Allahın yenidən nemət verməsi üçün dua etməz. Təvəkkül etmədiyinə görə Allahın ona imtahan üçün yaratdığı bu fürsətdən yenə öz əleyhinə istifadə etmiş olur.

Halbuki bütün bu gerçəkləri bilib səbir edənlər və varlıqda da, yoxluqda da Allahdan razı olanlar mütləq Allahın rəhmətini görəcəklər. Allah bir ayədə *"O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə (olan nemətimi) artıraram, yox əgər nankorluq etsəniz, Mənim əzabım şiddətlidir""* (İbrahim surəsi, 7) sözləri ilə şükür edən qullarına nemətini artıracağını xəbər vermişdir.

Quranda aclıq və yoxsulluqla imtahan edilən möminlərin durumundan belə bəhs edilir:

**Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən cənnətə daxil olacaqsınız? Onlara elə sıxıntı və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: "Allahın köməyi nə vaxt (gələcək)?"– dedilər. Həqiqətən, Allahın köməyi yaxındır. (Bəqərə surəsi, 214)**

Allah onların dözülməz çətinlik və yoxsulluqla qarşılaşanda Allahın yardımına sığındıqlarını bildirir. Lakin unutmaq olmaz ki, Allah səbir edib belə bir imtahanı gözəlliklə qarşılayanlara köməyinin çox yaxın olduğunu müjdələmişdir. Çünki Allah qullarını çətinliklə imtahan edərkən onlara mütləq asanlıq yaradacağını vəd edir. *"Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir"* (İnşirah surəsi, 5) ayəsi ilə xəbər verilən bu vəziyyət möminlərin ən çətin anlarda belə Allahın verdiklərinə razı olmasını və səbirli davranmasını təmin edir.

Bunun ən gözəl nümunələrindən birini Peyğəmbərimizin (səv) yanındakı saleh möminlərin davranışlarında görmək mümkündür. Allahın rizasını qazanmaq məqsədilə susuzluq, yorğunluq və dözülməz aclıq zamanı səbirli olmuş, Peyğəmbərimizlə birlikdə mübarizəyə davam etmişdilər. Dözülməz dərəcədə isti səhrada Allahın rizasını qazanmaq üçün çətinliyə səbir göstərən möminlərə əcr veriləcəyi bir ayədə belə buyurulur:

**Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə (döyüşdə) Allahın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz. Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. (Tövbə surəsi, 120)**

Göründüyü kimi, Allah xəbər verir ki, möminlərin çətinliklər qarşısında səbirlərinin qarşılığı mütləq veriləcək. Başqa bir ayədə Allah Özünü "(Allah) onlara aclıqdan (sonra) yemək verdi və qorxudan (sonra) əmin-amanlıq bəxş etdi" (Qüreyş surəsi, 4) hökmü ilə tanıdaraq möminlərə rəhmətini bildirmişdir.

### Xəstələndikdə səbirli olurlar

Quran əxlaqının yaşanmadığı cəmiyyətlərdə insanların şərtlərə görə davranışlarını dəyişməsi normal qarşılanır. Şərtlər yaxşı olduqda, yəni maddi-mənəvi hər cür ehtiyacları qarşılandıqda davranışları da gözəl olur. Lakin onları narahat edən hər hansı sıxıntı olanda isə xarakterləri tamamilə dəyişir. Çətinlik keçici olsa da, buna qarşı səbirli ola bilmirlər. Onların təvəkkül etmədiklərini göstərən durumlardan biri də xəstəlikdir.

Halbuki insanların gözəl əxlaqlı olub-olmadığını göstərən amillər xəstəlik, aclıq, yorğunluq kimi hallardır. Çətin anlar insanların özünü isbat etməsi, Allaha olan sədaqət və bağlılığını ortaya qoyması üçün dəyərli zamanlardır. Allah həqiqi gözəl əxlaqın və yaxşılığın şərtlərindən birinin çətinlikdə və xəstəlikdə səbirli olub gözəl davranmaq olduğunu bildirmişdir. (Bəqərə surəsi, 177)

Möminlərin xəstəlik zamanı təvəkküllü və səbirli davranmalarının ən önəmli səbəbi Allaha olan dərin imanlarıdır. Quranda bir ayədə hz.İbrahimin bu həqiqəti "o Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir" (Şüəra surəsi, 80) sözləri ilə dilə gətirdiyi bildirilmişdir. Hz.İbrahim kimi bütün möminlər xəstəliyi də, şəfanı da Allahın yaratdığını bilir və təlaşa düşmürlər. Əksinə olaraq, onları illərlə sağlam yaşadan Rəbbimizə şükür edirlər. Sağlam həyatın ancaq Allahın lütfü olduğunu gördükləri üçün xəstələndikdə də şükür etməyə davam edirlər.

Xəstəliklərlə yanaşı, qəza və şikəst olmaq kimi hallarda da çox itaətkar davranıb təvəkkül edirlər. Çətinliklər zamanı səbirli olduqlarına görə Allahın onları cənnətdə daha gözəl surətdə yaradacağını umurlar. Buna görə də dünyada bir şeydən məhrum olmuş kimi görünsələr də, axirətdə böyük mükafat alacaqlarını unutmurlar.

İman gətirməyənlər isə dünya həyatına bağlılıqlarına görə belə hadisə qarşısında nəinki səbirsiz olurlar, eyni zamanda ümidsizlik içində sıxıntı çəkirlər. Məsələn, əli və ya qolu şikəst olan adam belə yaşamaq yerinə ölmək istəyir, hətta belə durumlarda intihara əl atanlar da olur. Tək həyatın bu dünyada olduğunu zənn etdiklərinə görə bəzi qüsurlarla yaşamağın mənasız olduğunu düşünürlər. İntihar etmək istəməsələr də, çox tərs xarakterə bürünüb ətrafındakılara əziyyət verməyə çalışırlar. Halbuki həmin adamlar təvəkkül edib-etməsələr də, bu hadisəni dəyişə bilməzlər. Təvəkkül etdikdə isə sonsuz cənnət həyatını və bir daha zərər görməyəcək qüsursuz bədənə sahib olmağı uma bilərlər. Lakin təvəkkül etmədiklərinə görə həm dünya, həm də axirət həyatlarını alt-üst edirlər. Çünki başlarına gələnləri Allahın yaratdığını bilmirlər və buna görə də cəhənnəmə düşəcəklər.

Quran əxlaqını yaşayan insanın isə davranışları tamamilə fərqli olur. Mömin qəza keçirməklə və ya başqa səbəblə şikəst olarsa, əsla fərqli xarakter göstərməz. Bunun Allahdan gələn imtahan olduğunu və aqibətinin mütləq xeyirli olacağını bilib səbirli olar. Bundan sonra da bütün imkanları ilə Allahın rizasını qazanmağa çalışar. Fiziki baxımdan cəhd etmək imkanı olmasa belə, fikri yöndən insanlara faydalı olan və onları axirətə yönəldən işlər görər.

Xəstələndikdə Allahdan üz çevirən insanlar necə xəta etdiklərinin fərqində deyillər. Çünki Allahdan başqa şəfa verən və onları xəstəlikdən qurtaran güc yoxdur. Həkimlər, dərmanlar və müalicələr ancaq Allahın izni ilə şəfa verir. Möminlər bu həqiqəti bildiklərinə görə xəstəliyi səbirlə qarşıladıqları kimi, şəfanı da səbirlə Allahdan istəyərlər. Onlar vasitələrdən tam faydalanıb bunların ancaq Allah dilədikdə yararlı olacağını unutmazlar.

Quranda möminlərin xəstəlik zamanı səbirlə Allaha sığındıqlarına dair nümunə olaraq hz.Eyyub verilir. Hz.Eyyub Allahın "Həqiqətən, Biz onu səbir edən gördük. Necə də gözəl qul idi! O, daima Allaha üz tutardı" (Sad surəsi, 44) sözləri ilə təriflədiyi peyğəmbərdir. Hz.Eyyubun səbri və Allaha üz tutması ayələrdə belə bildirilir:

**Eyyubu da (yada sal!) Bir zaman o, Rəbbinə yalvarıb demişdi: "Mənə, həqiqətən də, bəla düçar olubdur. Sən rəhmlilərin ən rəhmlisisən!" Biz onun duasını qəbul etdik və ona düçar olmuş bəlanı aradan qaldırdıq. Öz tərəfimizdən bir mərhəmət və ibadət edənlərə bir ibrət olsun deyə, ailəsini ona qaytardıq, üstəlik bir o qədər də əlavə etdik. (Ənbiya surəsi, 83-84)**

Eyyub peyğəmbərin belə vəziyyətdə göstərdiyi üstün əxlaqı Allaha səmimi duasından anlamaq mümkündür. Dərd və xəstəlik içində ikən Allahın mərhəmətli, şəfqətli olduğunu və hər şeyə gücünün çatdığını unutmadan səbirlə Ona yönəlmişdir. Allah bu əxlaqın əvəzində duasını qəbul edib ona şəfa vermişdir.

Göründüyü kimi, hər şeydə olduğu qədər çətinlik və xəstəlik zamanı da Allah səbirli olanlara yardım edir. Bir ayədə səbirli olanlara Allahın dəstəyi belə ifadə edilir:

**Səbir edin, çünki Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)**

### Haqsızlığa qarşı səbirli olurlar

Quran əxlaqından uzaq insanlar əsil ədaləti bərqərar edə bilmirlər. Dünyada böyük-kiçik hər əməllərinin axirətdə qarşılarına çıxacağını düşünmədikləri üçün ədalət mövzusunda da qərarlı olmurlar. Bundan başqa, vicdanla hərəkət etmədiklərinə görə ağıllı deyil, ani qərarlar alırlar. Əsəbiləşəndə qəzəblərini cilovlamayıb intiqam almağa çalışırlar. Mənfəətləri üçün qarşı tərəfə haqsızlıq etməkdən belə çəkinmirlər. Mediada belə xəbərlərə tez-tez rast gəlinir. İşdən qovulduğu üçün müdirinə hücum çəkən, işinə mane olan birinə iftira atan, təhqir edən birinə daha pis münasibət göstərən şəxslərə həmişə rast gəlirik. Bu adamlar onlara edilən pisliyə və ya haqsızlığa Quran əxlaqından tamamilə uzaq davranışla cavab verirlər, bəzən bu, cinayətə qədər gedib çıxır.

Möminlər də imtahan olaraq daim belə insanların ədalətsiz hərəkətləri ilə üzləşə bilərlər. Lakin onlar yuxarıda nümunə verdiyimiz adamlar kimi pisliyə pisliklə cavab vermirlər. Bunu da qeyd etmək lazımdır ki, haqsızlığa tamaşa da etmirlər. Daim təvəkküllü olduqlarına görə soyuqqanlılıqla hərəkət edirlər.

Möminlərin haqsızlıqla üzləşdikdə səbirli davranmaları bütün hadisələrin Allahın nəzarətində olduğunu və Allahın sonsuz ədalət sahibi olduğunu bilmələrindən qaynaqlanır. Çünki Allah axirət günü bütün insanların zərrə qədər haqsızlığa uğramadan etdiklərinin qarşılığını alacaqlarını bildirmişdir. Beləliklə, dünyada haqsızlıq edib ədalətsiz davrananlar axirət günü etdiklərinin qarşılığını mütləq görəcəklər. Quranda Allahın sonsuz ədalətindən belə bəhs edilir:

**Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. bir xardal dənəsi mislində olsa belə, onu gətirib (tərəziyə) qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 47)**

**Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər. Məhz onlar üçün ağrılı-acılı əzab vardır. (Şura surəsi, 42)**

**Allahın dərgahına qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi büsbütün veriləcək və onlara zülm olunmayacaqdır. (Bəqərə surəsi, 281)**

Odur ki, Allahın bu qanununu bilən möminlər haqsızlıq gördükdə də səbirli olurlar. Allah bu səbrin əvəzində onlara mütləq yardım edəcəyini belə vəd edir:

**... Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah qüvvətlidir, qüdrətlidir. (Həcc surəsi, 40)**

Quranda hz.Yusifin həyatı boyu dəfələrlə haqsızlıqla üzləşdiyi, ancaq təvəkkül və səbrindən dolayı Allahın ona yardım etdiyi bildirilir. Hz.Yusifin uşaqlıq illərindən başına gələnlər həm onun, həm də atası hz.Yaqubun imtahanı üçün xüsusi olaraq yaradılmışdır. Hz.Yusif əvvəlcə onu qısqanan qardaşları tərəfindən quyuya atılmış, sonra bir karvan tərəfindən tapılıb kölə kimi satılmışdır. Quranda hz.Yaqubun baş verənlərə gözəl şəkildə səbir etdiyindən və uşaqlarının qurduğu hiyləyə görə Allahdan yardım istədiyindən bəhs edilir:

**(Qardaşları) onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər. (Yaqub) dedi: "Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir. (Mənə) gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır". (Yusif surəsi, 18)**

Hz.Yusif bundan sonra onu pulla alan misirli vəzirin xanımının iftirasına məruz qalmışdır. Hz.Yusifin günahsız olduğu bilindiyi halda, onu zindana salmışdılar. O, uzun illər haqsız yerə həbsdə qalsa da, bunları Allahın imtahan üçün xüsusi yaratdığını unutmamışdır. Allaha sığınıb Ondan yardım istəmiş və səbirli olmuşdur. Allahın inkar edənlərin hiyləsini puç edəcəyinə və iman gətirənlərin mütləq xilas olacağına əmin olmuşdur. Allah səbir etdiyinə görə ona həm dünyada, həm də axirətdə razı qaldığı nemətlər vermişdir:

**Padşah dedi: "Onu yanıma gətirin! Onu özümə yaxın edəcəyəm". Onunla söhbət etdikdə: "Sən bu gün yanımızda yüksək məqam sahibi, etibarlı bir adamsan", – dedi. O dedi: "Bu yerin xəzinələrini mənə tapşır. Çünki mən qoruyanam, bilənəm". Beləliklə, Yusifə yer üzündə hökmranlıq verdik. O, istədiyi yerdə qala bilərdi. Biz istədiyimizə mərhəmətimizi nəsib edirik və yaxşı iş görənlərin mükafatını əsirgəmirik. İman gətirənlər və müttəqi olanlar üçün, əlbəttə, axirət mükafatı daha xeyirlidir. (Yusif surəsi, 54-57)**

Bu hadisələrdən sonra Allah hz.Yusifi illər sonra ona hiylə quran qardaşları ilə qarşılaşdırmışdır. Hz.Yusif haqsızlıqlar qarşısında Allahın rəhmətini və Ona olan güvənini belə dilə gətirmişdir:

**Onlar dedilər: "Yoxsa sən özün Yusifsən?" O dedi: "Mən Yusifəm, bu da qardaşımdır. Allah bizə mərhəmət etmişdir. Kim qorxsa və səbir etsə, Allah yaxşı iş görənlərin mükafatını puç etməz". (Yusif surəsi, 90)**

Quranda hz.Yusif ilə əlaqədar bəhs edilənlər möminlərin hikmətləri görə bilmələri baxımından əhəmiyyətli nümunələrdir. Çünki Allahın hz.Yusifə yardımı bütün inananlara şamil edilir. Allah möminlərə qarşı qurulan hiylələri pozan, haqsızlıqlara mütləq cavab verəndir.

**İnkarçıların iftiraları və acı sözləri qarşısında səbirli olurlar**

Quranda möminlərin imtahanından bəhs edilərkən inkarçılardan incidici sözlər eşidəcəkləri də bildirilir:

**Sizdən əvvəl kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir edib qorxsanız, bu, əzmkarlıq (tələb edən) əməllərdəndir. (Ali-İmran surəsi, 186)**

Tarix boyu göndərilən bütün peyğəmbərlər qövmlərinin müxtəlif iftira və ittihamları ilə üzləşiblər. Xüsusilə bu qövmlərin başçıları onları belə hərəkətlərə təşviq etməklə iman gətirənlərə qarşı qızışdırıblar. Bunun əsas səbəbi odur ki, haqq din onların ədalətsizliklə əldə etdiyi dünyəvi mənfəətləri əllərindən alır. Onlar yaşadıqları ərazidə zənginlik, məqam və etibar baxımından üstün olduqları üçün xalqı rahatlıqla soyub, ədalətsizliyi və haqsızlığı insanlara normal göstəriblər.

Quran əxlaqı isə insanlara dürüstlüyü, ədaləti və yoxsulun haqqını qorumağı əmr edir. Odur ki, dinin bu xüsusiyyətlərini dünyəvi mənfəətləri üçün təhlükəli görənlər din əxlaqını yaymaq istəyən möminləri qaralayıb onların qarşılarını almağa çalışıblar. Bunun aşkar nümunələrindən biri Misir fironudur. O, İsrail oğullarını kölə kimi işlədib onlara hər cür əzab-əziyyət verirdi. Firon tərəfindən ağır şərtlərdə istismar edilən bu insanlara Allah xilaskar kimi hz.Musanı göndərmişdi. Haqq din İsrail oğulları ilə ədalətli, mərhəmətli və vicdanlı davranmağı əmr edirdi, bunu isə öyrənən firon hz.Musanı xalqın gözündən salmaq istəmişdi. Elə zənn etmişdi ki, Peyğəmbərin gətirdiyi dinə heç kim etibar etməyəcək, beləliklə, mənfəətlərinə zərər gəlməsi təhlükəsi sovuşacaq. Digər tərəfdən, hz.Musaya atılan iftiralar inananları qərarından döndərib onları qorxudacaq və dini yaymaqdan vaz keçəcəklər. Həmin iftiralardan bəziləri Quranda belə bildirilmişdir:

**Biz Musanı möcüzələrimizlə və aşkar bir dəlillə göndərdik – Fironun, Hamanın və Qarunun yanına. Onlar isə: “Bu, yalançı bir sehrbazdır!”– dedilər. (Ğafir surəsi, 23-24)**

**O öz camaatı ilə birlikdə üz çevirib: “Bu sehrbazdır, ya da dəlidir!”– dedi. (Zariyat surəsi, 39)**

Firon və ətrafının hz.Musaya dedikləri bu sözlər tək onlara xas deyil. Tarixən Allahın din əxlaqını yaymaq üçün göndərdiyi bütün elçilərə eyni ittihamlar atılmışdır. Yalançılıq, sehrbazlıq, məcnunluq, şairlik və ya mənfəətpərəstlik bunlardan bir neçəsidir. İman gətirənlərin hər dövrdə belə iftiralarla üzləşmələri isə qətiyyən təsadüf deyil. Əksinə olaraq, Allahın möminlərin səbir və təvəkküllərini yoxlamaq üçün yaratdığı xüsusi hadisələrdir.

Quranda bunun keçmişdən bəri davam etdiyi barədə belə deyilir:

**Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, (onun barəsində): “Sehrbazdır, ya da dəlidir!”– deməsinlər. (Zariyat surəsi, 52)**

Allah hz.Muhəmmədə və yanındakı möminlərə də bu yöndə müxtəlif iftiralar atıldığını xəbər vermişdir:

**Onlara: “(Bu) insanlar iman gətirdiyi kimi siz də iman gətirin!”– deyildiyi zaman: “Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?”– deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bilmirlər. (Bəqərə surəsi, 13)**

**Onun qövmünün kafir zadəganları dedilər: “Biz sənin özümüz kimi sadəcə bir insan hesab edir və içimizdən ancaq düşüncəsiz olan ən rəzil adamların sənə qoşulduğunu görürük. Həmçinin sizin bizdən üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik”. (Hud surəsi, 27)**

**Öz aralarından onlara xəbərdarlıq edən gəldiyinə təəccüb edərək kafirlər dedilər: “Bu, yalançı bir sehrbazdır!” (Sad surəsi, 4)**

Allahın elçiləri və saleh möminlər inkarçıların iftiralarının qarşısında səbir göstərib Allaha sığınmış və Ondan yardım istəmişlər. Bunun bir nümunəsi Quranda belə bildirilir:

**(Peyğəmbər) dedi: "Ey Rəbbim! haqq hökm ver! Sizin aid etdiyiniz sifətlərə qarşı ancaq Rəhman olan Rəbbimizdən kömək diləmək lazımdır". (Ənbiya surəsi, 112)**

Allah inkarçıların Peyğəmbərə əziyyətverici hərəkətlərinə Quranda belə cavab vermişdir:

**(Onlara) xatırlat! Sən öz Rəbbinin neməti sayəsində nə kahinsən, nə də dəli! (Tur surəsi, 29)**

**Kafirlərə və münafiqlərə itaət etmə. Onların əziyyətlərinə fikir vermə və Allaha təvəkkül et. Allahın qoruyan olması kifayətdir. (Əhzab surəsi, 48)**

Allahın ayədə bildirdiyi kimi, mömin hansı çətinliklə qarşılaşsa da, Quran əxlaqını yaşamağa və insanlara bu yöndə öyüd verməyə davam etməlidir. Buna görə də möminlər inkarçıların bu hərəkətlərinə fikir verməməli, təvəkkül və səbirlə doğru bildikləri yolda irəliləməlidirlər. Bundan başqa, inkar edənlər öz əməlləri ilə fərqində olmadan iman gətirənlərin şövq və həyəcanının artmasına səbəb olurlar.

**Din əxlaqını təbliğ edərkən səbirli olurlar**

Allah peyğəmbərlərin həyatı boyu göstərdikləri səbri Quran ayələri ilə bizə bildirərək bu üstün əxlaqı necə yaşayacağımızı bizə göstərmişdir. Şübhəsiz ki, bu, inanan və Allaha yaxınlaşmaqda yol axtaranlar üçün böyük nemətdir.

Quranda peyğəmbərlərin ömür boyu ətrafındakı insanlara və qövmlərinə Allahın dinini təbliğ etdikləri xəbər verilir. Lakin hər peyğəmbər qövmünü doğru yola dəvət edərkən çoxlu düşmən qazanmış, əvvəl də dediyimiz kimi, onların sözlü və feili hücumlarına məruz qalmışdır. Fəqət inkarçıların bu cəhdləri elçiləri əsla təşvişə salmamış, əksinə olaraq onlar din əxlaqını nümunəvi səbir və qətiyyətlə təbliğ etmişlər.

Quranda həyatından nümunələr verilən bu elçilərdən biri də hz.İbrahimdir. İbrahim peyğəmbər həyatı boyu səbir tələb edən müxtəlif hadisələrlə imtahan edilmişdir. Allahın qarşısına çıxardığı bütün hadisələrdə təvəkküllü və səbirli olmuşdur. Hz.İbrahim daşdan büt düzəldib ona ibadət edən qövmünü haqq dinə və tək Allaha iman gətirməyə çağırdığına görə oda atıb onu yandırmaq istəmişdilər. Quranda hz.İbrahimin bu imtahanından belə bəhs olunur:

**"İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik", – dedilər. (Digərləri də:) "Onu camaatın gözü qabağına gətirin ki, şahidlik etsinlər", – dedilər. (Ənbiya surəsi, 60-61)**

**Onlar dedilər: "Bundan ötrü bir bina tikin və onu orada odlayın!" Onlar hiylə qurmaq istədilər, Biz də onları rüsvay etdik. (O dedi): "Mən Rəbbimə doğru gedirəm. O, məni doğru yola yönəldəcəkdir". (Saffat surəsi, 97-99)**

Ayələrdə bildirildiyi kimi, qövmü hz.İbarhimi oda atmaq istəmiş, lakin Allah ona səbirli və təvəkküllü olduğu üçün rəhm edib oda soyuq olmağı əmr etmişdi:

**Biz: "Ey od! İbrahim üçün sərin və zərərsiz ol!"– dedik. Onlar İbrahimə qəsd etmək fikrinə düşdülər, lakin Biz onları daha şiddətli cəzaya məruz qoyduq. (Ənbiya surəsi, 69-70)**

Hz.İbrahimin başına gələn bu hadisə Allahın səbirli və təvəkküllü qullarına olan yardımıdır, həmçinin Rəbbimizin səmimi müsəlmanlara çox böyük nemətlər verdiyinin gözəl nümunəsidir.

Quranda təkcə hz.İbrahimin səbrindən bəhs edilmir. İbrahim peyğəmbər həyatının sonuna qədər insanlara Allahın varlığını anlatmış, onları haqq dini yaşamağa dəvət etmişdir. Lakin onlar bütlərə sitayiş etməkdən əl çəkməyib dini qəbul etməmişdilər. Hz.İbrahim heç kimin iman gətirmədiyinə baxmayaraq, təbliğinə səbirlə davam etmişdi. Onun din əxlaqını necə səbirlə təbliğ etdiyini babası ilə söhbətindən də görmək mümkündür:

**Bir zaman o, atasına demişdi: “Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən? Atacan! Həqiqətən, sənə gəlməyən bir elm mənə gəlmişdir. Arxamca gəl ki, səni doğru yola yönəldim. Atacan! Şeytana ibadət etmə! Həqiqətən, şeytan Rəhmana çox asi oldu. Atacan! Qorxuram ki, Rəhmandan sənə bir əzab toxunsun və beləcə şeytana yoldaş olasan”. (Atası) dedi: “Sən mənim tanrılarımdan üzmü çevirirsən, ey İbrahim!? Əgər son qoymasan, səni mütləq daşqalaq edəcəyəm. Uzun müddət məndən uzaq ol!” (Məryəm surəsi, 42-46)**

Allahın təbliğdə səbir və əzmlə cəhd edən elçilərindən biri də hz.Nuhdur. O, qövmünə Allahın haqq dinini təbliğ etmək üçün böyük səbir göstərmişdi. Hər dəfə üz çevirsələr də, onlara müxtəlif və fərqli yollarla yaxınlaşmağa çalışmış, lakin qövmü iman gətirməmişdi. Nuh qövmü iman gətirməməklə yanaşı, Peyğəmbəri qorxutmaq üçün ona təzyiq edib fəaliyyətlərinə mane olmağa çalışmışdı. Hz.Nuh səbirli və təvəkküllü olduğuna görə təzyiqlər ona heç təsir etməmişdi. Onun təbliğdə göstərdiyi səbirdən Quranda belə bəhs edilir:

**Onlardan əvvəl Nuh qövmü (elçiləri) yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı sayıb: “O, dəlidir!”– dedilər və ona hədə-qorxu gəldilər. (Qəmər surəsi, 9)**

**O dedi: “Ey Rəbbim, mən xalqımı gecə də, gündüz də dəvət etdim. Amma dəvətim onların qaçmalarını daha da artırdı. Sən onları bağışlayasan deyə, mən hər dəfə onları dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. Sonra mən onları aşkarcasına dəvət etdim. Sonra mən onlara (həm uca səslə), (həm də) gizlicə bildirib dedim: “Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox bağışlayandır! (Nuh surəsi, 5-9)**

Əlbəttə, keçmiş peyğəmbərilərin həyatlarından verilən bu nümunələr müsəlmanlar üçün ibrətamizdir. Allah bu əhvalatları Quranda bizə bildirərək səbirdə qərarlılıq göstərən peyğəmbərlərindən nümunə götürməyimizi istəyir:

**Elçilərdən möhkəm iradə sahiblərinin səbir etdiyi kimi, sən də səbir et! ... (Əhqaf surəsi, 35)**

İman gətirənlər keçmişdə olduğu kimi, bu gün və ya gələcəkdə də dini bilməyən, inkar edən, qavrayışı zəif olan insanlarla qarşılaşa bilər. Hər dövrdə Allahın varlığını və axirəti inkar edən insanlar ola bilər. Müsəlmanlar qorxmadan və çəkinmədən Allahın dinini, yaradılış həqiqətini insanlara izah etməlidirlər. Belə ki, Allahın varlığını qəbul etməyən ateistlərlə, eləcə də həqiqətləri, elmi dəlilləri inkar edən insanlarla qarşılaşa bilərlər. Yaxud da o adamlar mənsub olduğu cahil topluluğun mənfi təsirlərindən ayrıla bilməyən, həqiqətləri görməkdə çətinlik çəkən şəxslər ola bilər. Bəzən bir adama çox açıq olan bir həqiqəti anlatmaq həftə, ay və ya illər çəkə bilər. Belə vəziyyətdə hz.Nuh kimi hər cür yolu sınayaraq və hz.İbrahim kimi hər cür təhlükəni gözə alaraq səbirli olmaq çox əhəmiyyətli ibadətdir. Çünki dini təbliğ edərkən qəti səbir göstərmək din əxlaqından uzaq insanların həqiqətləri görmələrinə və axirətlərinin qurtulmalarına vəsilə olar.

İman gətirənlər bu gözəl xidməti heç bir mükafat gözləmədən, yalnız insanların axirəti üçün və səbirlə yerinə yetirirlər. Əlbəttə, müsəlmanların səmimi cəhdlərinin qarşını almağa və onlara mane olmağa cəhd edə bilərlər, ancaq bunlar dünyada və axirətdə qarşılıqsız qalmayacaq. Təbliğ edərkən buna bir nəfər belə inanmasa da, səbirli olduqlarına görə Allah onlara dünyada gözəllik və hüzur, həmçinin axirətdə onlara böyük mükafat verəcək.

## SƏBRİN İNSANA QAZANDIRDIĞI ÜSTÜNLÜKLƏR

***Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər,***

***bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbirli olmağı məsləhət edənlərdən başqa. (Əsr surəsi, 2-3)***

Allahın “Əsr” surəsində bildirdiyi kimi, səbri və haqqı bir-birinə tövsiyə edən insanlar bir çox yöndən üstünlük qazanırlar. Səbir insanı kamilləşdirən, ona üstün əxlaq qazandıran, eləcə də dindən uzaq insanlarla müqayisə edilməyəcək dərəcədə gözəl və hüzurlu həyat bəxş edən özəllikdir. Bundan başqa, iman gətirənlərin axirətdə səbrin qarşılığının artıqlaması ilə alacaqları vəd edilmişdir. Dünya və axirətdə yaşadıqları bu üstünlüklərin bəzilərini belə sıralamaq mümkündür:

**Səbrin qazandırdığı böyük nemət: ağıl**

İnsanların ağıllı davranmasına mane olan ən əsas səbəblərdən biri səbirsizlik nəticəsində ani qərarlar alıb yanlış davranmalarıdır. Hirslənmək ağılı örtür və adamı bir anda düşünmədən hərəkət etməyə vadar edir. Bununla yanaşı, qorxmaq, incimək, küsmək kimi hərəkətlər də insana məntiqli və ağıllı düşünməyə imkan vermir. Quranda bildirilən kimi səbirli olmayanlar hər zaman duyğuları ilə hərəkət edib ağıllı olmaqdan tamamilə uzaqlaşırlar.

Möminlər isə Allahın əmrinə tabe olub səbir etdiklərinə görə ağıl kimi böyük neməti qazanırlar. Səbirli adam bu xüsusiyyətinin sayəsində üzləşdiyi hadisələri həyəcan və ya qorxu ilə deyil, sakit və soyuqqanlılıqla dəyərləndirir. Hadisələri dərindən və hərtərəfli düşünərək ən ağıllı qərarlar alır. Ən əhəmiyyətlisi isə mömin səbirli olmaqla Quranın bütün əmrlərini ən gözəl şəkildə tətbiq edir. Səbirli olduğuna görə ömrünün hər mərhələsində bir iş görərkən əvvəlcə Qurandakı tövsiyələri düşünür, sonra hərəkət edir. Qurana tabe olanları Allah doğru yola yönəldir. Beləliklə, səbir edən insan Quranı ən gözəl tərzdə yaşamaqla Qurana tabe olmağın gətirdiyi üstün ağılı qazanır.

**Səbir incə düşünməyi və təfərrüatları görməyi təmin edir**

Səbrli olmağın başqa üstünlüklərindən biri insanlara ilk anda görə bilmədiyi incəlikləri görmək və bu barədə ağıllı düşünmək fürsəti qazandırmasıdır. Səbirsiz insanlar hər şeyin dərhal həll edilməsini istəyir və yalnız öz istəklərini düşünürlər. Bununla, bəlkə də, əhəmiyyətli olan təfərrüatları gözdən qaçırıb yanlış qərarlar alırlar. Bundan başqa, insanların ehtiyaclarını görməyib onların vəziyyətini bilmir, buna görə də düşüncəsiz davranırlar.

Möminlər isə səbirli olduqlarına görə bir məsələni həll edərkən lazımsız yerə tələşlanmırlar. Çünki təlaş adamın ağlını örtür və doğru düşünməyə, dəqiq qərar almağa mane törədir. Səbirli insan isə təlaşlanmayıb ağıllı hərəkət edir. Buna görə də çox adamın görmədiyi şeyləri asanlıqla görür və doğru hərəkət edir.

**Səbir yaxşılıq etməyə səbəb olur**

Səbir nəfsinin bir çox pis xüsusiyyətlərini dəf etməkdə, beləliklə, gözəl əxlaq göstərməkdə insana kömək edir. Lakin unutmaq olmaz ki, bu yalnız iman gətirənlərə aiddir. Allahdan qorxmayan və göstərdiyi əxlaqa görə axirətdə cavab verəcəyini unudan insanlar nəfslərinin pis xüsusiyyəti üçün üçün cəhd göstərmirlər. Dünyəvi mənfəətləri olmayanda yaxşılıq etmirlər. Məsələn, bir adamın qayınanası xəstələndiyi üçün onların evində qala bilər və elə şərait yarana bilər ki, o insan da həmin yaşlı adama qulluq etsin. Bu, bir insan üçün səbir tələb edən xeyirli işdir. Lakin Quranda əmr edilən səbir anlayışını qavramayan insan buna ancaq qısa müddət tab gətirər. Sonra deyinməyə və: “Qocalar evinə aparaq, mən baxa bilmirəm”, – deməyə başlayar. Yaxud da din əxlaqından uzaq bir adamın həyat yoldaşı qəza keçirib yatağa düşə və qayğıya ehtiyacı ola bilər. Belə vəziyyətdə ətrafındakılara görə və ya başqa səbəblə bir müddət ona baxar, lakin bu yenə də müvəqqəti xarakter daşıyar. Müəyyən müddətdən sonra çətinliyə səbir etməyib həyat yoldaşını asanlıqla tərk edib gedər. Möminlər isə Allahdan çox qorxurlar və Allah üçün etdiklərinin axirətdə savab olaraq qarşılarına çıxacağını bilirlər. Bu səbəbdən səbirlə gözəl əxlaq göstərir, bunun üçün cidd-cəhd edirlər. Bunun sayəsində də nəfslərinin bütün pis xüsusiyyətlərindən təmizlənirlər.

**Səbir ədalətli davranmağa səbəb olur**

Allah Quranda möminlərə ədalətli olmağı belə əmr edir:

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm verməniz i əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah eşidəndir, görəndir. (Nisa surəsi, 58)**

Möminlər özlərinin və ya yaxınlarının əleyhinə belə olsa, Allahın əmri olduğu üçün ədalət və dürüstlükdən əl çəkməzlər. Onların bu üstün əxlaqa malik olmalarının əsas səbəbi yenə də Qurana tabe olmaqla qazandıqları səbirdir.

İnsan ədalətli olmaq üçün duyğuları ilə hərəkət etməməli, qəzəbinə yenilməməli, kin və intiqam hissi ilə hərəkət etməməlidir. Bunlara səbəb olan şeylərlə qarşılaşdığına görə ciddi şəkildə səbirli olmalıdır.

Allah bunu Quranda belə bildirir:

**Ey iman gətirənlər! Allah xətrinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 8)**

**Səbir inananlara etibar qazandırır**

Gəlib-keçmiş bütün elçilər qövmlərinə belə demişdir:

**Şübhəsiz ki, mən sizin üçün etibar etməli olduğunuz bir elçiyəm. (Şüəra surəsi, 143)**

Elçilərin özlərini belə bir xüsusiyyətlə tanıtmaları etibarlı olmağın insanlar üçün nə qədər əhəmiyyətli bir vəsf olduğunu göstərir. Elçilərin bu xüsusiyyətini digər möminlərdə də görmək mümkündür. Çünki Quranla gələn üstün əxlaq və səbir anlayışı möminlərə etibarlı olmağın bütün xüsusiyyətlərini qazandırır. Səbirli insanlar əvvəlki hissələr də bildirildiyi kimi, eyni zamanda ağıllı, doğru sözlü, ədalətli olurlar. Nəyi nə zaman edəcəklərini və hadisələrə necə reaksiya verəcəklərini bilirlər. Ən əhəmiyyətlisi isə hər şeydə səbirli olduqlarına görə gözəl xüsusiyyətlərini ömürlərinin sonuna qədər davam etdirirlər. Dünyəvi mənfəətlərə görə Allahın razı olduğu əxlaqı tərk etmirlər. Bütün bu vəsfləri həm bir yerdə, həm də davamlı yaşamaq möminləri insanlar arasında ən etibarlı insanlar edir.

**Səbir insana sevinc və hüzur qazandırır**

Allaha iman gətirməyən insanlar üçün üzülmək, sıxılmaq və ya hüzursuz olmaq adi haldır. Çünki bu insanlar Allahın canlı-cansız hər varlığın hakimi olduğunu, bütün hadisələri hikmətlə yaratdığını, dilədiyi vaxt qullarının dualarına istədiyi kimi cavab verəcəyini və hər şeyi nəzarətdə saxladığını düşünmürlər. Bun görə də görünüşdə işlər tərs gedən kimi o dəqiqə sıxıntıya düşürlər. Quranda inkar edənlərin bu xüsusiyyətindən belə bəhs edilir:

**İnsanlara mərhəmət göstərdikdə ona sevinərlər. Öz əlləri ilə etdikləri günahlara görə onlara bir bəla üz verdikdə isə dərhal ümidlərini üzərlər. (Rum surəsi, 36)**

Möminlər isə inkarçıların əksinə olaraq Allahdan əsla ümidlərini üzmürlər. Çünki Allah sonsuz güc sahibidir və kainatdakı hər şeyin hakimidir. O, iman gətirənlərin dostu, vəlisi və yardımçısıdır. Ona sığınanları qoruyur və rahatlığa çıxarır. Rəbbimizin böyüklüyünü və sonsuz rəhmətini təqdir edən möminlər hansı çətinliklə və ya mənfi hadisələrlə qarşılaşsalar da, səbir və təvəkküllə Allaha sığınırlar. Buna görə də ən çətin vaxtlarda belə sevincli və hüzurlu olurlar. Bundan başqa, səbir etdiklərinə görə cənnətdə Allahdan mükafat alacaqlarını bilirlər, bunun üçün də şövq və həyəcanla yaşamağa davam edirlər.

Dünyada çətinliklərə səbir göstərə bilməyənlər isə təkcə dünyada bədbəxt yaşamazlar. Allah onların axirətdə də eyni vəziyyətdə olacaqlarını bildirmişdir. Dünyada imtahanlar zamanı səbirli olan üstün əxlaqlı insanların, eləcə də səbirsiz və üsyankar olan inkarçıların axirətdə görəcəkləri qarşılıq ayələrdə belə xəbər verilir:

**(Qiyamət) gəldiyi gün Allahın izni olmadan heç kəs danışa bilməz. Onlardan kimi bədbəxt, kimi də xoşbəxt olacaq. Bədbəxtlərə gəlincə, onlar od içərisində qalacaqlar. Onlar orada fəryad qoparacaq və zarıyacaqlar. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Həqiqətən, Rəbbin istədiyini edəndir. Xoşbəxtlərə gəldikdə isə, onlar cənnətdə olacaqlar. Rəbbinin dilədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. (Bu,) tükənməz bir sovqatdır. (Hud surəsi, 105-108)**

### Allahın səbir edənlərə vəd etdiyi gözəl həyat

Kitab boyu bəhs etdiyimiz kimi, möminlər həyatda Allahın xüsusi olaraq yaratdığı bir çox hadisə ilə sınanırlar. Lakin bu onların çətin həyat yaşadığı mənasına gəlmir. Əksinə, dünyada ən gözəl həyatı yaşayanlar möminlərdir. Çünki Allah onların qəlblərinə səbrin və təvəkkülün gətirdiyi hüzur və güvənlik hissini yerləşdirmişdir. Bu, insanların pul və etibarla, yaxud da başqa imkanlarla əldə edə bilmədiyi və yalnız möminlərə xas nemətdir. Hüzurlu kimi görünən insanlar bütün sərvətlərini ortaya qoysalar da, Allahın səbir edənlərə verdiyi hüzur və güvənlik hissini yaşaya bilməzlər. Çünki Allah bu hissi yalnız möminlərin qəlbinə verir:

**Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur. Göylərin və yerin orduları Allahındır. Allah biləndir, müdrikdir. (Fəth surəsi, 4)**

Beləliklə, möminlər heç bir çətinliyə baxmayaraq, rahat olduqlarına görə sıxıntı və kədər hissini yaşamırlar.

Onlar qeyd-şərtsiz səbirli olub Allahdan gələn hər şeyə razı olduqlarına görə Allah onları dünyada gözəl həyat nəsib edəcəyini bildirmişdir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

**... Kim qorxsa və səbir etsə, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. (Yusif surəsi, 90)**

**Müttəqilərə: "Allah nə nazil etmişdir?" – deyildikdə, onlar: "Xeyir!"– deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir. (Nəhl surəsi, 30)**

**De: "Ey Mənim iman gətirən qullarım! Rəbbinizdən qorxun! Bu dünyada yaxşılıq edənləri yaxşılıq gözləyir. Allahın (yaratdığı) yer üzü genişdir. Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir". (Zümər surəsi, 10)**

### Möminlərinin səbrinin qarşılığı: cənnət

Allaha könüldən bağlı olan insanlar dünyada sahib olduqları hər şeyi Allaha həsr edir, Onun rizasını qazanmaq üçün yaxşı gündə də, dar gündə də səbir edirlər. Üz verən sıxıntılar, inkarçıların təzyiqi və başqa çətinliklər onları Allahın dinini yaşamaqdan uzaqlaşdırmır. Çünki onlar qəti imanla Rəbbimizə yönəlir, həyatlarının sonuna qədər imanda səbir və qərarlılıq göstərirlər.

Ömrünü belə səbirlə keçirən möminlər axirətdə ən gözəl mükafat kimi Allahın sevgisi və razılığını qazanacaqlar:

**Allah mömin kişilərə və mömin qadınlara altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur. (Tövbə surəsi, 72)**

**Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnət bağları ilə müjdələyir. (Tövbə surəsi, 21)**

**Onların Rəbbinin yanındakı mükafatı altından çaylar axan, içində əbədi qalacaqları Ədn bağlarıdır. Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu, Rəbbindən qorxan kimsələrdən ötrüdür! (Beyyinə surəsi, 8)**

Allahın səbirli qulları sonsuz gözəllikdəki cənnətdə mələklərin "salam" sözü və xoş diləkləri ilə qarşılanacaq, sonsuza qədər oradan əsla ayrılmayacaqlar. Mələklər bu sonsuz nemətin möminlərə səbir etdiklərinə görə verildiyini belə xəbər verir:

**Əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları hazırlanmışdır. Mələklər bütün qapılardan onların yanına daxil olub (deyəcəklər): "Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!" (Rəd surəsi, 23-24)**

Allah dünyada gözəl əxlaqı ömür boyu yaşayan, çətin zamanlarda daim təvəkkül edən və hər zaman Onun razı qaldığı əməllər edənlərin mükafatını qat-qat verəcək:

**Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edir və özlərinə verdiyimiz ruzidən xərcləyirlər. (Qəsəs surəsi, 54)**

Cənnətə layiq görülən qullar orada nəfslərinin istədiyi hər şeyi əldə edəcək, göz oxşayan köşklərdə taxt və döşəklər üzərində oturacaq, sonsuza qədər peyğəmbər və saleh möminlərlə birlikdə olacaqlar. Belə ki, Allahın səbir edən möminlərə vəd etdiyi qəti həqiqətdir. Buna görə də Allah "Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan cənnətə tələsin" (Ali-İmran surəsi, 133) ayəsi ilə qullarını dünya həyatında ikən Allahın rizasını və cənnətini qazanmaq üçün yarışmağa çağırmışdır. Başqa ayələrdə isə möminləri belə müjdələmişdir:

**Onlar səbir etdiklərinə görə (Cənnətdə olan) otaqla mükafatlandırılacaq, orada xeyir-dua ilə, salamla qarşılanacaqlar. (Furqan surəsi, 75)**

**Bu gün Mən səbir etdiklərinə görə onları mükafatlandırdım. Şübhəsiz ki, uğur qazananlar da onlardır! (Muminun surəsi, 111)**

## SƏBRİN SİRLƏRİ...

***... Səbir edin, çünki Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)***

Quran insanlara bilmədiklərini öyrədən və onları qeyd-şərtsiz qurtuluşa çatdıran yeganə kitabdır. Dünya həyatının və axirətin bütün sirləri insanlara bu kitab vasitəsilə bildirilmişdir. İnsanın ancaq Qurandan öyrənəcəyi sirlərdən biri də səbirdir. Səbir təkcə gözəl əxlaqın bir hissəsi deyil, eyni zamanda möminləri Allahın rəhmətinə çatdıran əhəmiyyətli yoldur.

Allah səbirli olub Quran əxlaqını nöqsansız yaşayan, çətinliklərin öhdəsindən gələn və Rəbbimizin əmrlərini yerinə yetirən qullarına ummadıqları yerdən də nemət verir. Quranda səbir göstərən müsəlmanlara Allahın vəd etdiyi nemətlər barədə bəhs edilir:

**Səbirli olan az sayda topluluq Allahın izni ilə**

**Çoxlu sayda topluluqları məğlub etmişdir**

**Talut qoşunla birlikdə yola düşdükdə dedi: "Allah sizi bir çayla imtahan edəcək. Kim ondan içsə, məndən deyildir. Bir ovuc götürən istisna olmaqla, kim ondan dadmasa, o məndəndir". Onların az bir qismi istisna olmaqla (hamısı) ondan su içdilər. (Talut) onunla olan möminlərlə birlikdə çayı keçdikdən sonra (bəziləri) dedilər: "Bu gün bizim Caluta və onun qoşununa gücümüz çatmayacaq". Allahla qarşılaşacaqlarını yəqin bilənlər isə dedilər: "Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbir edənlərlədir. (Bəqərə surəsi, 249)**

**Qurulan hiylələr səbirli olub Allahdan qorxanlara əsla**

**zərər verə bilməz**

**Sizə bir uğur nəsib olsa, onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və (Allahdan) qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir. (Ali-İmran surəsi, 120)**

**Allah səbir edib Allahdan qorxanlara**

**mələkləri ilə yardım edəcəyini vəd etmişdir**

**Əlbəttə, siz səbir etsəniz, (Allahdan) qorxsanız və onlar bu saat sizin üstünüzə hücuma keçsələr, Rəbbiniz nişanlanmış beş min mələklə sizə yardım edər. (Ali-İmran surəsi, 125)**

**Allah səbirli olanların gücünü qat-qat artırar**

**Ey Peyğəmbər! Möminləri döyüşə ruhlandır. Əgər aranızda iyirmi səbirli kişi olsa, (kafirlərdən) iki yüzünə qalib gələr; əgər aranızda yüz (səbirli kişi) olsa, kafirlərdən mininə qalib gələr. Çünki onlar anlamayan adamlardır. (Ənfal surəsi, 65-66)**

**Allah səbir edənlərə vəd etdiyi sözü mütləq yerinə yetirər**

**(Musa ilə olan) zəif camaatı isə yer üzünün xeyir-bərəkət verdiyimiz məşriqlərinə və məğriblərinə varislər təyin etdik. Səbir etdiklərinə görə Rəbbinin İsrail oğulları barəsindəki gözəl Sözü yerinə yetdi. Biz firon və onun xalqının qurduqlarını və tikib ucaltdıqlarını darmadağın etdik. (Əraf surəsi, 137)**

## MÖMİNLƏRİN SƏBİR DUALARI

***Musa öz qövmünə dedi: "Allahdan kömək diləyin və səbir edin.***
***Şübhəsiz ki, yer üzü Allahındır. O, qullarından dilədiyini onun***
***varisləri təyin edir. (Gözəl) aqibət müttəqilərindir". (Əraf surəsi, 128)***

Allah bir ayədə “Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər” (Bəqərə surəsi, 186) buyuraraq möminləri istədikləri hər şeydə Özünə dua etməyə çağırmışdır. Çünki Allah qullarını çox sevən və onlara mərhəmətli olandır. Qulları sıxıntıya düşəndə onlara asanlıq və hüzur verir. Quranda Allahın möminlərə olan bu yardımı belə ifadə edilmişdir:

**Sizi zülmətlərdən nura çıxartmaq üçün sizə rəhm edən Odur. Onun mələkləri də (sizin üçün bağışlanma diləyərlər). (Allah) möminlərə qarşı Rəhmlidir. (Əhzab surəsi, 43)**

Səbrin Quran əxlaqını yaşayıb Allahın əmrlərini yerinə yetirmək üçün nə qədər əhəmiyyətli olduğunu dərk edən möminlər hər şeydə olduğu kimi, səbir mövzusunda da Allahdan yardım istəyirlər. Səbrin dünya həyatında hər cür çətinliyin açarı olduğunu, doğru yola çatdırdığını, ən əhəmiyyətlisi isə Allahın sevgisini və cənnətini qazandırdığını bilirlər. Quranda möminlərin Allahdan səbir istədiklərini bildirən dualarına yer verilmişdir. Bununla da səbrin insanlar üçün nə qədər böyük ehtiyac olduğuna diqqət çəkilmişdir:

**Sən sadəcə, Rəbbimizin möcüzələri bizə gəldikdə onlara iman gətirməyimizə görə bizdən intiqam alırsan. Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür. (Əraf surəsi, 126)**

**Onlar Calutun və onun qoşununun qarşısına çıxdıqda dedilər: “Ey Rəbbimiz! Bizə səbir ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə qələbə çalmaqda bizə yardım et!” (Bəqərə surəsi, 250)**

Quranda verilən möminlərin səbir duası eyni zamanda bizə xatırladır ki, bu mövzuda Allahdan daha çox səbir diləməliyik. Kitabın əvvəlindən bəri üzərində dayandığımız kimi, Allah səbir edən və səbirlə Ondan yardım istəyənlərə mütləq kömək edəcəyini və onlara nemətlərini artıracağını vəd etmişdir. Bu halda, insanın həyatı boyu qarşılaşdığı hər çətinlik və sıxıntıda ehtiyac duyduğu ən önəmli şeylərdən biri səbirdir. İnsanlar səbri qazandıqda şərtlərdən asılı olmayaraq, imanın şövqü və Allahın rizasını qazanmağın həyəcanı ilə mütləq qalib gələr və müvəffəqiyyətli olarlar. Allah səbrin bu sirrini möminlərə xəbər vermiş, beləliklə də, səbirli olmağı, bunun üçün dua etməyi və səbirdə yarışmağı əmr etmişdir.

## NƏTİCƏ

Allah bir ayədə inananları “O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allahın doğru yola yönəltdiyi şəxslərdir. Ağıl sahibləri də məhz onlardır” (Zümər surəsi, 18) sözləri ilə təsvir etmişdir. Həqiqətən də, iman gətirənlər ağıllı olduqlarına görə sözü eşidib ən gözəlinə tabe olurlar.

Biz kitabın əvvəlindən bəri Qurandan müxtəlif nümunələr verərək səbrin gözəl əxlaqın əsasını təşkil etdiyini, ən əhəmiyyətli şeylərdən biri olduğunu, həmçinin insana dünyada və axirətdə saysız nemətlərin qapısını açdığını xatırlatdıq. Beləliklə də, bütün ağıl sahiblərini sözün ən gözəlinə tabe olmağa dəvət etdik. Bundan başqa, bütün çətinliklərə baxmayaraq, Allahın rizasını qazanmaq üçün daim gözəl əxlaq göstərənləri, eləcə də Rəbbimiz üçün səbir edənləri dünyada və axirətdə mükafatla müjdələdik.

Bir insanın dünya və axirətdə alacağı ən gözəl mükafat Allahın rizasını qazanmaq, Onun rəhmət və cənnətinə qovuşmaqdır. Bütün bunlar dünyanın heç bir neməti və zövqü ilə müqayisə edilməyəcək qədər gözəldir. Allahın sevgisini qazanmağın bir yolu isə dünyada yaradılan hər hadisəni, söylənən hər sözü və edilən hər hərəkəti Allahın hikmət və xeyirlə yaratdığını bilmək, Allaha güvənməkdir. Çünki Quranda Allahın Özünə güvənərək hər mövzuda səbir göstərənləri sevdiyi bildirilmişdir:

**Neçə-neçə peyğəmbər (olmuşdur ki,) bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də boyun əymişlər. Allah səbir edənləri sevir.** (Ali-İmran surəsi, 146)

Buna görə də Allah bir ayədə “Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!” (Ali-İmran surəsi, 200) sözləri ilə möminlərin bu əxlaqı qazanmaq üçün bir-biri ilə yarışmağı əmr etmişdir.

Peyğəmbərimiz (səv) bir hədisdə səbirlə əlaqədar belə buyurub:

**Səbir insanın yarısı, bilgi də imanın hamısıdır. (Hz.İbn Məsuddan, Ramuz əl-əhadis, səh. 217)**

Dünya həyatı sürətlə keçib gedir. Altmış-yetmiş illik həyatda Allahın insanları sınamaq üçün yaratdığı hadisələrə səbir göstərməyib üsyan edənlər, həmçinin namaz, oruc və zəkat kimi ibadətləri yerinə yetirməyənlər mütləq öləcək, sonunda cənnət və cəhənnəmə gedəcəklər. Qədərə təslim olub səbirli olanlar isə dünya həyatını ən gözəl şəkildə yaşamaqla yanaşı, axirətdə də cənnəti qazanacaqlar. Dünya həyatını səbir göstərmədən çətinliklərə şikayət edərək keçirənlər isə dünyada dinsizliyin qaranlığı içində yaşadıqları kimi, axirətdə də özlərini cəhənnəmin qaranlığında görəcək, qısa ömür üçün sonsuz həyatı itirdiklərini anlayacaqlar.

Bu kitabın məqsədi o gün gəlməmişdən və insanlar peşmanlıqla: “Əgər biz dinləsəydik və ya anlasaydıq, alov (şölələri saçan) od sakinlərinin içində olmazdıq!” (Mülk surəsi, 10), – deməmişdən əvvəl onlara xəbərdarlıq etmək, həmçinin insanları bütün gözəlliklərin yolunu açan səbri yaşamağa və bu əxlaqda yarışmağa dəvət etməkdir.

## ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL NƏZƏRİYYƏSİNİN SÜQUTU

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdənkənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi, həmçinin təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, qərəzli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər əsərlərimizdə də bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq bu mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə əsaslı şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı. Özünün də qəbul etdiyi kimi, sadəcə fikir irəli sürmək idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşılaşdığı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir təkzib etdi.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

***1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.***

***2) Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.***

***3) Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.***

Bu bölmədə bu üç başlığı əsas prinsipləri ilə təhlil edəcəyik.

### Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbii qanunlar çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

### Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "təsadüfi törəmə" (spontaneous generation) adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərinə əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görünməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə basdırılmışdır". (*Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh.2*)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi məsələsi təkamül nəzəriyyəsini tamamilə əhatə edən ən qaranlıq məqamdır". (*Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196*)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin Yer kürəsi şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (*"New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, 63-cü cild, oktyabr 1982, səh. 1328-1330*)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada (Jeffrey Bada) təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (*Jeffrey Bada, Earth, fevral 1998, səh. 40*)

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların belə mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələri birləşdirərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Hüceyrənin ən əsas quruluş vahidi olan zülalların təsadüfən sintezlənmə ehtimalı 500 amin turşusundan ibarət orta ölçülü zülal üçün $10^{950}$ 1-dir. Ancaq riyaziyyatda 1050-də 1-dən kiçik ehtimallar praktiki cəhətdən "qeyri-mümkün" hesab edilir. Hüceyrənin nüvəsində yerləşən və genetik informasiyanı daşıyan DNT molekulu böyük informasiya bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi informasiya kağıza köçürülsə, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana əmələ gələr. Burada çox maraqlı dilemma da var: DNT ancaq bəzi xüsusiləşmiş zülalların (fermentlərin) köməyi ilə ikiləşir. Ancaq bu fermentlərin sintezi də ancaq DNT-dəki informasiya əsasında baş verir. Bir-birlərindən asılı olduqlarına görə ikiləşmənin (replikasiya) baş verməsi üçün hər ikisi eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə əmələ gəlməsi ssenarisini çıxılmaz vəziyyətdə qoyur. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orgel (Leslie Orgel) "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin

əsla mümkün olmadığı nəticəsinə gəlir”. (*Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78*)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini təkzib edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü hər iki anlayışının, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seçmə mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi: təbii seçmə yolu ilə...”

Təbii seçmə təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalması fikrinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq.

Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz. Ona görə təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil.

Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: “Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”, – demək məcburiyyətində qalmışdı. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189*)

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (*Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184*)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə “neodarvinizmi” ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozuntuları əlavə etdi.

Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan proses nəticəsində

əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan (B. G. Ranganathan) bunu belə açıqlayır:

*"Mutasiyalar kiçik, təsadufi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xususiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yuksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadufi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadufi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha da yaxşılaşdırmır, onu məhv edir. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, təkbaşına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir. Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişdirlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar. Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Həqiqətən də, bu cür canlılar keçmişdə yaşayıblarsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil qeydlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

*"Əgər nəzəriyyəm doğrudursa, novləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid novləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

*"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyiblərsə, **nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?** Geologiya yaxşı dərəcələndirilmiş bir prosos üzə çıxarmır və bəlkə də, bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaq."( Əlavə haşiyə: Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir.

Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar, təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer (Derek V. Ager) təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

*"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük".* (*Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə bu, canlı növlərinin yaradıldığını göstərən çox güclü dəlildir.

Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

*"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983, səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Avstralopiteklər
Homo habilis
Homo erektus
Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən avstralopitek ("australopithecus") adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan olan iki məşhur anatomun avstralopitek nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389*)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo ardıcıllığındakı canlılar avstralopiteklərdən daha çox inkişaf ediblər. Təkamülçülər bu

fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, – deyərək bunu qəbul edir. (*J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992*)

Təkamülçülər “avstralopitek > homo habilis > homo erektus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri avstralopitek, homo habilis və homo erektusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (*Alan Walker, Science, cild 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272*)

Habelə, homo erektus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neanderthalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşdurlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli nümayiş etdirmirlər.”(*S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30*)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə avstralopitek fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman, təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fovqundə olan qavramaya və ya insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, (öz nəzəriyyəsinə) sadiq birisi üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, (təkamülün) coşqun tərəfdarın bəzən müxtəlif ziddiyyətli şeylərə eyni anda inanması belə mümkündür. (*Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19*)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı açıq misalla izah edək.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Bu ağlasığmaz iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni, sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz.

İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı altında nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Yuxarıdakı misalda göstərildiyi kimi, təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünsək, bu həqiqət aşkar görünür.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir. Gözlə bağlı mövzuya keçməmişdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nahiyəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyinə heç bir işıq keçmir. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik bu o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir.

Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu

görəcəksiniz. Həm də televizorun ekranı sizə ikiölçülü görüntü göstərir, lakin siz üçölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üçölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üçölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üçölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq ən yüksək texnologiya ilə bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa, təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmamışdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi, cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində gorən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gəlməmisiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əvəzedilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

*"Bizim materializmə inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna gorə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdənkənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəni, təhsilli insanlardır. Bu səbəbdən təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia

yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların urəyinə və qulağına möhür vurmuşdur. Gozlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", – deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətamizi vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir.

Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa, insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub duzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elm

adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

*"Mən özüm təkamül nəzəriyyəsinin xususilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh.43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar, təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi təsvir ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda (batilin) yox olub getdiyini görərsiniz. (Allaha) aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**